


**Tarixi yaddaşımızdan silinməyən soyqırım**
8

# Vətəndaş məmnunluğunun təmin edilməsi üçün mühüm işlər görülür

*Prezident İlham Əliyev Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışında iştirak edib*


2

SƏS
№ 052 (6493) 29 mart 2022-ci il. Qiymәti 60 qәpik

# Rusiya-Ukrayna savaşını durdura biləcək güc: Türkiyə faktoru!


6

*Yaxud, Azərbaycanın strateji müttəfiqi olan Ankara barışçı missiyasını icra edir - Bakının da prosesə qoşulması şansı arta bilərmi?*



## Ramazan ayında nələrə diqqət yetirmək lazımdır?
4

## Messi və Neymar DÇ-2022-nin rəmzi komandasında


16

## Dünyanı hansı güclər və necə idarə edir?






## "Putinin mövqeyi ilə Rusiya MN-nin mövqeləri arasında kəskin fərq mövcuddur"



**Vladimir Sajin: "Bakı və Tehranın yaxınlaşması regionun iqtisadi potensialını və təhlükəsizliyini gücləndirəcək"**
15

Azərbaycan və İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının...



**Niyə təhsil almayan insanlar cəmiyyətdə birmənalı qarşılanmır**
11

Bir xalq üçün ən böyük sərvət təhsildir. Təhsilsiz cəmiyyət isə məhvə məhkumdur. Təhsil şəxsiyyətin və cəmiyyətin...

# Vətəndaş məmnunluğunun təmin edilməsi üçün mühüm işlər görülür

## *Prezident İlham Əliyev Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışında iştirak edib*






**Dünən Prezident İlham Əliyev Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışında iştirak edib. Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev dövlətimizin başçısına Mərkəzdə yaradılan şərait barədə məlumat verib.**

Bildirilib ki, Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev küçəsi, 79 ünvanında yerləşən beşmərtəbəli binada vətəndaşların rahat müraciət etmələri və onların müraciətlərinə baxılması üçün zəruri şərait yaradılıb.

Mərkəzdə gözləmə zalları, qəbulların



aparılacağı xidməti otaqlar, kollektiv qəbullar üçün nəzərdə tutulan müxtəlif ölçülü zallar, həkim, psixoloq, hüquq məsləhətçisi, ana və uşaq otaqları vardır.

Vətəndaş Qəbulu Mərkəzində tətbiq olunan yeniliklərdən biri də Çağrı Mərkəzinin istifadəyə verilməsidir. Vətəndaşlar 1111 nömrəsinə zəng edərək onları narahat edən məsələlər barədə məlumat verə biləcəklər. Bu müraciətlər operatorlar tərəfindən dərhal qəbul olunaraq vətəndaşlara müvafiq izahat veriləcəkdir. Mərkəzdə tətbiq olunan daha bir yenilik isə ölkənin müxtəlif bölgələri ilə birbaşa videokonfranslar keçirilməsi imkanının yaradılmasıdır. Burada ölkənin bütün şəhər və rayon icra hakimiyyətlərinin vətəndaş qəbulu otaqları və Prezident Administrasiyasının müvafiq struktur bölməsi ilə paralel olaraq əlaqə saxlamaq imkanı verən xüsusi rabitə sistemi vardır.

Bu Mərkəzin istifadəyə verilməsi ictimai nəzarətin mühüm mexanizmlərindən biri olan vətəndaş müraciətlərinə daha operativ baxılmasına şərait yaradacaq. Mərkəzdə həm ilk dəfə qəbula gələn, həm də əvvəlcədən qəbula yazılan vətəndaşlar üçün iki qeydiyyat köşkü quraşdırılıb. Vətəndaşlar şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçib müvafiq ardıcıllığa riayət etməklə qəbula yazıla və müraciət edə biləcəklər. Burada fəaliyyət göstərəcək könüllülər də bu prosesdə vətəndaşlara yardımçı olacaqlar.

Bir sözlə, vətəndaş məmnunluğunun təmin edilməsi, dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə daha yüksək pilləyə qaldırılması, vətəndaşların qəbulunda şəffaflığın artırılması məqsədilə yaradılan Mərkəzdə bu işin təşkili üçün hər cür şərait vardır.

Vətəndaşlar qəbulla yanaşı, Prezident Sarayına ənənəvi qaydada, yaxud "president.az" rəsmi səhifəsi vasitəsilə elektron məktubla da müraciət edə bilərlər. Prezident Administrasiyasına daxil olan vətəndaş müraciətlərinin hər biri hərtərəfli təhlil olunur və qaldırılan bütün məsələlərə operativ qaydada baxılır.

Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın ölkədə epidemioloji vəziyyətin yaxşılaşması ilə əlaqədar xüsusi karantin rejiminin yumşaldılması barədə qəbul etdiyi qərara əsasən dövlət orqanlarında vətəndaşların qrup halında və fərdi qaydada qəbul edilməsinə artıq icazə verilib. Hazırda mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən vətəndaşların səyyar qəbulları həyata keçirilməkdədir. Eyni zamanda, Prezident Administrasiyasının struktur bölmələrinin rəhbərləri tərəfindən də vətəndaşlar qəbul ediləcəklər.



## Ayaz Niyazi oğlu Mütəllibov

**Tanınmış ictimai-siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının sabiq Prezidenti Ayaz Niyazi oğlu Mütəllibov 2022-ci il martın 27-də ömrünün 84-cü ilində vəfat etmişdir.**

Ayaz Mütəllibov 1938-ci il mayın 12-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1956-1962-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1958-ci ildə Azərbaycan Elmi Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunun konstruktor bürosunda böyük texnik kimi başlayan Ayaz Mütəllibov 1959-cu ildən etibarən Bakı məişət elektrik cihazları zavodunda quraşdırma sexinin ustası, mühəndis, texniki nəzarət şöbəsinin rəisi, baş konstruktor və baş mühəndis vəzifələrində çalışmışdır. O, 1966-cı ildə Bakı soyuducular zavodunun direktoru təyin olunmuş, 1974-1977-ci illərdə həmin vəzifədə qalmaqla "Bakelektroməişətmaş" istehsalat birliyinin baş direktoru işləmişdir.

Ayaz Mütəllibov 1977-ci ildə Bakı şəhəri Nərimanov Rayon Partiya Komitəsinin ikinci katibi seçilmiş, 1979-cu ildə Azərbaycan SSR-in yerli sənaye naziri təyin olunmuşdur. O, 1982-1989-cu illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini - Dövlət Plan Komitəsinin sədri və 1989-1990-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifələrini tutmuş, 1990-cı ilin yanvarında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, 1990-1991-ci illərdə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin və onun Siyasi Bürosunun üzvü olmuşdur. Ayaz Mütəllibov 1990-cı ilin mayında Azərbaycan SSR Ali Soveti tərəfindən təsis olunan Azərbaycan SSR-in Prezidenti vəzifəsinə seçilmiş, 1991-ci ilin sentyabrından Azərbaycan Respublikasının Prezidenti olmuş, 1992-ci ildə isə vəzifəsindən istefa vermişdir.

Bir neçə çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olan Ayaz Mütəllibov sovet dövrünün bir sıra orden və medalları ilə təltif edilmişdir.

İctimai-siyasi və dövlət xadimi Ayaz Niyazi oğlu Mütəllibovun xatirəsi onu tanıyanların qəlbində yaşayacaqdır.

Allah rəhmət eləsin!

***İlham Əliyev***
***Mehriban Əliyeva***
***Əli Əsədov***
***Sahibə Qafarova***
***Samir Nuriyev***
***Eldar Əzizov***
***Yaqub Eyyubov***
***Şahin Mustafayev***

# Suqovuşanda yeni həyat qaynayır



Azərbaycanın işğalçı Ermənistan üzərində parlaq qələbə qazanmasından sonra qısa bir zamanda azad olunan ərazilərimizdə bərpa-təmir, abadlıq və quruculuq işlərinə start verildi. Bildiyimiz kimi, işğal altında saxlanılan ərazilərimizdə dağıdılan yaşayış məntəqələri, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb, tarixi-mədəniyyət və dini abidələrimizə ciddi ziyan dəyib, fərdi və çoxmənzilli yaşayış evləri məhv edilib. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan yeraltı və yerüstü sərvətlərimizə qarşı olan vandallıq əməlləridir. Bu gün artıq ərazilərimizdə intensiv şəkildə bərpa və yenidənqurma işləri həyata keçirilir.

Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunan ərazilərimizə səfəri zamanı erməni faşistlərinin törətdiyi vəhşiliklərlə tanış olur, öz tapşırıq və göstərişlərini verir. Reallaşacaq layihələr işğaldan azad edilmiş rayon, kənd və qəsəbələrin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq. İrimiqyaslı layihələr sırasında beynəlxalq hava limanları, "yaşıl enerji" zonasının yaradılması məqsədilə pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verilməsi və s. ərazilərdə aparılan abadlıq quruculuq işləri Böyük Qayıdışın təntənəsidir.

## VƏTƏN MÜHARİBƏSİNƏ QƏDƏR MADAGİZ ADLANMIŞ SUQOVUŞANDA ABADLIQ-QURUCULUQ İŞLƏRİ SÜRƏTLƏNİR

Görülən işlərin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyevanın Tərtərin Suqovuşan qəsəbəsində olduqları zaman "Azərişıq" ASC tərəfindən Azərbaycanda ilk dəfə Tərtər rayonunun Suqovuşan qəsəbəsinə çəkilmiş 35 kilovoltluq müasir izolyasiyalı, kənar təsirlərdən mühafizəli və istismar xərcləri daha az olan kabel xəttinin təqdimatı, Suqovuşan qəsəbəsində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışı olub. Xüsusi olaraq qeyd etməliyik ki, işğaldan azad edilən ərazilərdə hərbi hissələrin açılması, ən müasir texnikalarla təchizatı Azərbaycanın hərbi təhlükəsizliyinin xüsusi diqqətdə saxlanılmasının göstəricisidir. Suqovuşanda açılışı olan hərbi hissənin ərazisində nəzarət-buraxılış məntəqəsi, qərargah binaları, əsgər yataqxanaları, tibb məntəqəsi, qazanxanalar, mağaza, 174 nəfərlik yeməkxana binası yaradılıb. Hərbi hissənin qərargah binasında hərbçilər üçün bütün zəruri avadanlıqla təchiz edilən iş otaqları var. Əsgər yeməkxanası da müasir səviyyədədir. Bir sözlə, burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb.



Onu da bildirək ki, Suqovuşanda Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməli qoyulub. Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Tərtər rayonunun Suqovuşan qəsəbəsində təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışı olub. Qeyd edək ki, səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Suqovuşan qəsəbədəki 144 şagird yerlik tam orta məktəbin binasında olub, təhsil müəssisəsindəki vəziyyətlə maraqlanıblar. Yararsız vəziyyətə düşmüş məktəbinin binası təmir olunacaq. Əlbəttə ki, bu və ya digər irimiqyaslı lahiyələrə start verilməsi işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasının göstəricisidir.

## ERMƏNİ VANDALLIĞI: 67 MƏSCİDDƏN 63-Ü TAMAMİLƏ, 4-Ü İSƏ QİSMƏN DAĞIDILARAQ YARARSIZ HALA SALINIB

Vurğulamaq yerinə düşər ki, Azərbaycan mədəniyyəti, dini-mədəni abidələri, irsi ilə neçə əsrlərə malik tarixini, qədimliyini təsdiqləyir. İki əsrdən artıq Azərbaycana qarşı təcavüzkar siyasətini həyata keçirən Ermənistan saxta tarix yaratmaq məqsədi ilə torpaqlarımıza göz dikərək, burada olan dini, mədəni abidələrimizi, toponimlərimizi saxtalaşdıraraq "Böyük Ermənistan" yaratmaq xülyaların həyata keçirmək istəyiblər. Tarixdən məlumdur ki, Ermənistan ərazidəki türk mənşəli adların dəyişdirilməsi "Türkmənçay" sülh müqaviləsindən sonra baş vermişdir. Yüzlərlə kəndlərimizin adı dəyişdirilərək erməni soyqırımına məruz qalıb. Beləliklə, tarixin müxtəlif dönəmlərində Qızıl Bulağın adı dəyişdirilərək Güllüdüz-Vardahovid, Zeytə-Zedeya, Armutlu-Danzud, Ağbulaq-Axpurak, Acıbac-Acabac, Qovşud-Kavçut, Gabut-Kapuyt, Molla Musa-Musakan və s. adları ilə əvəzləniib, saxtalaşdırılıb. Tarixi faktlara istinad edərək qeyd edək ki, 1988-89-cu ilə qədər azərbaycanlılar yaşamış 16 rayonda 90 türk mənşəli toponimlər dəyişdirilərək erməni adı ilə saxtalaşdırıldı. Azərbaycan artıq bu saxtakarlıqlara qarşı öz iradəsini ortaya qoyub. 44 günlük Vətən müharibəsində 30 ilə yaxın zamanda erməni işğalı altında olan torpaqlarımız azad edildikdən sonra torpaqlarımızda aparılan abadlıq-quruculuq işləri ilə yanaşı, Azərbaycanın tarixi adları özünə qaytarılır, dini-tarixi abidələrimiz təmir və bərpa olunur.

Tarixdən bəllidir ki, 1969-cu ilin iyun ayında Basarkeçər rayonunun adı dəyişdirilərək Vardenis qoyulmuşdur. Bu ad Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə bərpa edildi. 2020-ci ilə qədər Madagiz adlanmış Suqovuşanın da tarixi adı Prezident İlham Əliyev tərəfindən bərpa edildi. Azərbaycan torpaqlarını işğaldan azad etdiyi kimi, toponimlərini də, tarixi-mədəniyyət abidələrini də bərpa və təmir edir. İşğaldan azad olunmuş Şuşa, Ağdam, Zəngilan, Cəbrayıl kimi ərazilərimizdə olan tarixi dini-mədəniyyət abidələrimiz dağıdılmış və məhv edilmişdir. İşğal dövründə vandalizmə məruz qalan mədəni-dini obyektlər sırasında İslam dini abidələri - məscidlər, türbələr və digər inanc yerləri mütləq əksəriyyət təşkil edir. Qarabağda rəsmi fəaliyyət göstərmiş 67 məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Belə ki, Qarğabazar kəndində Cəlil turbəsi, Aşağı Veysəlli kəndində Mirəli turbəsi, Qocəhmədli kəndində məscid binası, Horadiz kəndində məscid binası, Horadiz kəndində İmamzadə turbəsi, Aşağı Aybasandı kəndində İbrahim turbəsi və s. tarixi əhəmiyyətli abidələrimiz erməni vandalları tərəfindən məhv edilib, yararsız hala salınıbdır. İşğaldan azad olunmuş ərazilərimizdə hazırda geniş quruculuq işləri aparılır, yeni məscidlər tikilir. Onlardan biri də Suqovuşan qəsəbəsində təməli qoyulan məsciddir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbəsində yeni tikiləcək məscidin təməlini qoyublar. Ümumi ərazisi 0,6 hektar olan kompleksə məscid binası, köməkçi bina, dəstəmaz otağı və avtodayanacaq daxildir. İki mərtəbədən ibarət olacaq məscid binasının uzunluğu 16,8 metr, eni isə 11,2 metr təşkil edəcək. Burada kişilər və qadınlar üçün ibadət zalının olması planlaşdırılır. Layihəyə əsasən, məsciddə eyni vaxtda 110 nəfərin ibadət etməsi üçün şərait yaradılacaq.

Ağdam Cümə məscidinin, Şuşada Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidlərinin əsaslı təmir edilməsi istiqamətində görülən işlər, eləcə də Şuşada, suqovuşanda yeni məscidin inşasına başlanılması Azərbaycan dövlətinin milli-mənəvi dəyərlərin qorunmasına verdiyi böyük önəmi göstərir. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi istiqamətində işlər aparılır. Bütün bu tədbirlərin həyata keçirilməsində Heydər Əliyev Fondunun rolu müstəsnadır.

Təbii ki, Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı qeyd etdiyimiz bu və ya digər layihələrin reallaşmasına imkan verir. 30 ilə yaxın işğalda olan torpaqların bərpası, yenidən qurulması vaxt və maliyyə imkanları tələb edir. Bu gün işğaldan azad olunan və üçrəngli bayrağımız dalğalanan ərazilərimizdə tezliklə müasir infrastruktur yaradılacaq və yeni həyat başlayacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***



## Azərbaycan və Ukrayna prezidentləri arasında telefon danışığı olub

Martın 28-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Söhbət zamanı Prezident Volodimir Zelenski dövlətimizin başçısını Ukraynadakı vəziyyət barədə məlumatlandırıb.

Prezidentlər humanitar dəhlizlərin yaradılması və sülh danışıqlarının davam etdirilməsinin vacibliyini qeyd ediblər.

Telefon danışığı əsnasında Prezident Volodimir Zelenski tibbi ləvazimatlar daxil olmaqla, Ukraynaya göstərilən humanitar yardıma görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan daim humanitar məsələlərə böyük önəm verir və xüsusi diqqətlə yanaşır.



# Ramazan ayında nələrə diqqət yetirmək lazımdır?

**İslamın müqəddəs bayramlarından biri Ramazan bayramıdır. 11 ayın sultanı olan Ramazan ayı ilin ən mərhəmətli ayı hesab edilir. Bu ayda insanlar Allah yolunda oruc tutur, zəkat verir, dilək diləyirlər. Oruc tutmaq insanın dözümlülüyünü, gözüaçıqlığını, təmiz vicdanlı olduğunu göstərir. Gün ərzində yemək yeməyib, su içməyib Allaha ibadət edirlər. İmsak və iftar zamanı qidalanarkən bəzi məqamlara fikir vermək lazımdır.**

”Orucluq ayında diqqət olunacaq məqamlar imsakdan başlayır. İmsak zamanı susuzluğu artırmayan qidalardan istifadə edilməlidir”. Bu fikirləri SİA-ya açıqlamasında Sağlam qida mü-



təxəssisi **Ağa Salamov** bildirib.

Onun sözlərinə görə, konservləşdirilmiş balıq, ət, kolbasa və sosiska məhsullarından uzaq durmaq lazımdır: ”Yaxşı olar ki, səhər tezdən tərəvəz şorbası qəbul etsinlər, bol-bol su istehlak etsinlər. Eyni zamanda rəngli qazlı şirələrdən uzaq dursunlar. Çünki onların tərkibində minerallar yoxdur. Amma əksinə təbii şirələrdən istifadə edə bilərlər. Təbii sular insan orqanizmini minerallarla zənginləşdirir. Səhər yeməyində yumurta yemək məqsədə uyğundur. Tərəvəzlərə üstünlük verib, duzu çox az bir miqdarda istifadə etməlidirlər. Zeytundan istifadə edilə bilər. Quru əncir, çərəzlər istehlak etmək olar. Quru əncir insanı zində saxlayır. Səhər-səhər 7 zeytun və 1 quru əncir yemək insanı gün ərzində tox tutur.

Təbii ki, iftar zamanı onu su ilə açmaq lazımdır. Çünki gün ərzində ac qalan insanın qanında laxtalanma olur. Su içmək isə laxtalanmanın qarşısını alır. Həmçinin xurma ilə açmaq olar. Xurma insanı tox tutduğu üçün insanı tox tutur və çox yemək yeməyin qarşısını alır. Təbii ki, iftarda az yemək lazımdır. Fasilələrlə ilk olaraq şorba yeyib sonda quru yeməklərə keçid almaq lazımdır. Tomatlı şorbalardan uzaq durmaq lazımdır. Tomat mədə yanğısına səbəb ola bilər. Yeməkdən 1-2 saat sonra çay, şirniyyat istehlak edə bilərlər. Çayla kişmiş, əncir, qayısı qurularından istifadə edə bilərlər. Un mənulatlarından uzaq durmalıdırlar”.

**Sağlam qida tədqiqatçısı Asim Vəliyev də məsələ ilə bağlı münasibət bildirib:** ”Ramazan ayı çox yemək ayı deyildir. Ramazanda yeyəcəyiniz qidalar hər zamankı kimi halal və təmiz olmalıdır. Ağ çörək,



mürəbbə və paxlava kimi şirniyyatlar, şəkərli çay, çəltiyi olmayan ağ düyü plovu, kartof qızartması kimi məhsullar sağlam qida deyil və oruclu birini çox tez acdırır. Qatqısız tam taxıldan hazırlanmış çörəklər istehlak edilməlidir.

Çay, mineral su, meyvə suyu, qazlı içkilər, kola kimi içkilər orqanizmin su ehtiyacını ödəmir. Bu səbəbdən iftar və sahur arasında ən az 2,5 litr (çox tərləyənlər və çəkili olanlar üçün daha çox) su içilməlidir.

Sucuq, kolbasa, sosiska, hazır şorba kimi məhsullar tərkibində çin duzu adlanan MSG olduğuna görə asılılıq yaradır, həmçinin susuzluğu artırır. Şəkər, dadlandırıcı və bunları ehtiva edən qidalar aclığı və susamağı sürətləndirir.

Xüsusilə Ramazanda qazlı içkilər, hazır meyvə suları, kolalar və dondurmalar istehlak edilməməlidir. Bunların yerinə bəhməzlə hazırlanmış kompot və digər şərbətlər istehlak edilməlidir. Az yemək deyil, əksinə çox yemək çox acdırır.

Soya və qarğıdalı ilə bəslənən toyuğun ətindən uzaq durmağa çalışın. Yaxşı bişmiş quzu və keçi əti istehlak edilməlidir. Hazır qatqılar, jelatin, nişasta, marqarin kimi qatqılar ehtiva etmə ehtimalı çox yüksək olan məhsullardır və istehlak etməyin. Evdə hazırlanmış qatqılar daha faydalıdır.

Gecə yatarkən bir şey yeyib yatmaq əvəzinə sahura qalxmaq lazımdır.

Bol lifli meyvələr başda olmaq üzərə meyvə və tərəvəz yeyilməlidir. Yay ayı təzə, qış ayı isə quru meyvələr isladılıb yumuşaldılaraq və ya kompot hazırlanaraq yeyilməli, qan və qan şəkəri tənzimlənməlidir.

Duzlu məhsullardan, xüsusilə sahurda salamura zeytun, turşu kimi çox duzlu məhsullardan (suya ehtiyacı artırdığı üçün) mütləq uzaq durulmalıdır. Zeytun kimi duzlu qidalar iftarda yeyilə bilər. Sahurda çox soyuq və isti qidalar qəbul etmək qaz və mədə problemlərinə səbəb olduğu üçün tövsiyə edilmir.

Bir-iki yemək qaşığı sızma zeytun yağı əlavə edilmiş xiyar salatı yemək bağırsaq sağlamlığı üçün son dərəcə əhəmiyyətlidir. Səhər vaxtında oyanıb sahur yeməyi yemək həm orucu sağlam bir şəkildə tutmağa kömək edər, həm də orqanizmin ən azından su ehtiyacını qarşılayar. Ancaq dövrümüzdə insanların çoxu həm sahurda, həm də iftarda yeyilməməsi lazım olan nə varsa yeyirlər. Bildirməliyik ki, sahur yeməyi üçün ən az yarım saatlıq bir zaman ayrılmalıdır. Bunun üçün imsak vaxtından 45 dəqiqə öncə oyanıb, dəstəmaz aldıqdan sonra iki rükət də olsa namaz qılmaq bədəni oyadar. Beləcə orqanizm yemək yeməyə hazır hala gətirilər.

Ramazanda bol miqdarda mineral, vitamin, zülal, karbohidrat, lif və yağ ehtiva edən xurma, iftarda olduğu kimi sahurun da vaz keçilməzi olmalıdır. A, B1, B2, B3, B6 vitaminləri, natrim, kalium, kalsium, maqnezium, dəmir, kükürd, fosfor, xlor, betakaroten, fol turşusu ehtiva edən xurmanın qəbulu, orqanizmin daha canlı olmasını təmin edir. Bundan başqa şirin olmasına baxmayaraq miqdarında xurma və üzüm, qan şəkərini yüksəltmədiyi kimi susuzluğu da artırmır. Əgər mövsüm yay isə xurmanın xiyar, qovun və qarpızla birlikdə yeyilməsi bədən temperaturunun artmasına mane olur. Mövsüm qış isə pərpətöyün və kahı kimi qışlıq göyərtilərlə birlikdə yeyilməlidir. Sahur süfrəsinə ən az iki stəkan su içərək başlanmalıdır.

Sonra xurma və ya şəkərsiz yüngül şirniyyatlar yeyilməlidir. Üç-beş dəqiqə ara verib, mövsümünə uyğun zeytun yağı əlavə edilmiş xiyar ilə davam edilməlidir.

Xiyardan sonra da yenə bir neçə dəqiqə ara vermək sağlam bir qidalanma üçün faydalıdır.

Doymadınızsa, evdə hazırlanmış şorba, qatıq, az duzlu və ya duzsuz ayran, mövsümünə görə yaş, ya quru tərəvəz, ya paxlalı bitki yeməyi, plov, şəkərsiz kompot və tam taxıl çörəyi sahur üçün ideal bir yeməkdir.

15-20 dəqiqə ara verilərək istəyə görə isti olmayan şəkərsiz yaşıl çay, ya da açıq qara çay və otaq temperaturunda su içilməlidir. Sahurda yeyilə biləcək digər qidalar: Zeytun, yağlı yüngül yeməklər, pasterizə və UHT edilməmiş normal süd, qovrulmamış duzsuz badam və çiy fındıq.

Ac bir mədəyə ara vermədən yemək doldurmaq mədə başda olmaqla həzm sistemində ciddi fəsadlar meydana gətirir. Üstündən də nə qədər çox mineral su içilərsə-içilsin faydası olmur. Burada da miqdara diqqət edilməlidir. Axşam namazından sonra da 25-30 dəqiqə müddətdə az-az yeyilməlidir. Bəziləri iftarı bir qurtum su ilə açıb dərhal arxasınca siqaret çəkmələri də sağlamlıq baxımından ciddi fəsadlar yarada bilər.

Namazdan sonra evdə hazırlanmış ılıq bir şorba ilə başlayıb sulu yemək, plov, kompot, qatıq və ya ayranla davam etmək lazımdır. Üstünə ən çox bir stəkan su içə bilərlər. Çay yeməkdən ən az bir saat sonra içilməlidir. Bir çox müsəlmanlar Ramazan ayı boyunca savab əməl olaraq təravih adlı 20 rükət əlavə namaz qılır. Mədəni su və çayla çox yükləməmək üçün təravihdən sonra şəkərsiz çay və bol miqdarda su içilə bilər. Aralarında bir saatdan az bir zaman olmamaq şərtilə meyvə yeyilə bilər. Xüsusilə yay üçün qarpız kimi bol sulu meyvələrin qəbul edilməsi çox faydalıdır.

İftar və sahurdan sonra ağız təmizliyinə riayət etmək lazımdır. Məhəmməd Peyğəmbərimiz iftarda, sahurda və oruclu ikən misvakdan istifadə edərdi”.

***Abutel İlhamqızı***

SORĞU

# Azərbaycanın

## hər bölgəsi turizmin inkişafına yeni yollar açır

**Zəngin və geniş turizm imkanlarına malik ölkə olan Azərbaycanda mədəni turizm, sağlamlıq turizmi, idman turizmi, çimərlik turizmi, ekoloji turizm və s. mövcuddur. Bütün bunların olması xarici turistlərin ölkəmizə cəlb olunmasında əsas amillərdir. Bu sərvətlərdən doğru və düzgün istifadə turist ölkəsi olaraq Azərbaycanın dünyada tanıdılmasında mühüm əhəmiyyət kəsb edir. Xüsusi olaraq vurğulamalıyıq ki, Azərbaycanın dinamik inkişafı, ölkəmizdəki əsaslı dəyişikliklər, respublikamızın siyasi-iqtisadi və mədəni mərkəz, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi çıxış etməsi ölkəmizin dünyada olan imicini daha da yüksəldib. Bütün sahələrdə həyata keçirilən layihələr Azərbaycanın hər bir bölgəsində turizm üçün geniş imkanlar açıb. Pandemiyaya qədər ölkəmizə səfər edən turistləri sayının günbəgün artmasına səbəb əlbəttə ki, bu sahədə həyata keçirilən islahatlar və dövlət proqramlarının uğurla icrası əsas rol oynamışdır. Azərbaycanın hər bir bölgəsi turizm üçün yararlıdır.**



Əlbəttə ki, 30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımızın da turizm potensialı genişdir. 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin etmiş oldu. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə görülən işlər bu ərazilərin turist məkanına çevriləcəyini təsdiqləyir. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyevanın Tərtər rayonunun Suqovuşan qəsəbəsinə səfərləri çərçivəsində dövlət başçısının Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməlini qoyması bu ərazilərdə turizmin inkişafı üçün yaradılacaq geniş imkanlardan xəbər verir. Ərazinin minalardan təmizlənməsindən, dağıdılmış tikililərin qalıqlarının yığışdırılmasından, çoxillik bitkilərin budanmasından sonra burada abadlıq işlərinə başlanılacaq və əraziyə uyğun bitkilər əkiləcəkdir. Ötən əsrin 70-ci illərində Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə tikilən Suqovuşan su anbarı ətrafında yaradılacaq kompleksdə sahilboyu gəzinti cığırları salınacaq, oturacaqlar, söhbətgahlar quraşdırılacaqdır. Həmçinin burada turistlərə xidmət göstərəcək 40 nəqliyyat vasitəsi üçün avtodayanacaq, turizm məlumat mərkəzi və ictimai iaşə obyekti yaradılacaqdır. Suqovuşan Turizm Kompleksində işlər cari ilin sonunadək başa çatdırılacaq, növbəti mövsümdə turistlərə xidmət göstərəcəkdir.



Əlbəttə ki, görülən işlər deməyə əsas verir ki, işğaldan azad olunan ərazilərin turizm potensialı böyükdür. Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və s. turistlərin diqqətini cəlb edəcəkdir. Ərazilərdə aparılan abadlıq-quruculuq işləri tezliklə ilk insan məskənlərindən olmuş məşhur Azıx mağarası, Qaraköpək, Üzərliktəpə kurqanları, Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Mir Möhsün Nəvvabın ev muzeyi və s. çoxsaylı turistlərin ziyarətgahına çevriləcək. Bu, onu deməyə əsas verir ki, yaxın zamanlarda Azərbaycanın turizm məkanlarının coğrafiyası daha da genişlənəcəkdir.

Öz təbii sərvətləri ilə seçilən torpaqlarımızın səfalı və müalicəvi əhəmiyyət daşıyan yerləri, flora və faunasının başqa bir ab-havası var. Kəlbəcər rayonu ərazisindəki İstisu mineral suları, Şuşanın Cıdır düzü və saymaqla bitib-tükənməyən nümunələri böyük maraq doğurur.

Vurğulamaq yerinə düşər ki, istifadəyə verilən Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı turizmin ikişafında rol oynayacaq. Dünya standartlarına uyğun inşa olunan hava limanına istənilən tip hava gəmisinin eniş etməsi mümkündür. Burada sərnişinlərin və turistlərin rahatlığı üçün hər cür şərait mövcuddur. Hazırda Zəngilan və Laçında da beynəlxalq hava limanları inşa olunur. Bunlar başa çatdırıldıqdan sonra bu bölgəyə yerli turistlərin, eləcə də xarici ölkələrdən səyahət etməyə gələnlərin sayı xeyli artacaq. Adları qeyd olunan ərazilərdəki tarixi və dini abidələr, çinar meşələri diqqətdn kənarda qalmayacaq. Təbiətinin zənginliyinə görə bu bölgənin gələcəyi daha çox ekoturizmlə bağlı olacaq.

Təbii ki, hər rayonun özünəməxsus turizm potensialı var. Dövlət başçısı çıxışlarının birində vurğuladığı kimi, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək.

***Zümrüd BAYRAMOVA***





TƏHLİL

SİYASİ RAKURS

# Rusiya-Ukrayna savaşını durdura biləcək güc: Türkiyə faktoru!

*Yaxud, Azərbaycanın strateji müttəfiqi olan Ankara barışçı missiyasını icra edir - Bakının da prosesə qoşulması şansı arta bilərmi?*

***Məlum olduğu kimi, Ərdoğanla Putin arasında baş tutan telefon danışığında Rusiya və Ukrayna arasında növbəti görüşün İstanbulda keçirilməsi razılaşdırılıb. Bu baxımdan, Moskvanın Qərblə strateji yaxınlığa malik olmasına rəğmən Ankara ilə münasibətlərini etimada bağlaması özündə bir sıra faktorları ehtiva etməkdədir. Yəni Moskva da yaxşı bilir ki, bu gün Ukraynada başlatdığı müharibəyə görə demək olar ki, bütün NATO ölkələri və Aİ ilə münasibətləri korlanıbsa, Ankaranın da Qərblə münasibətləri elə də ürəkaçan səviyyədə deyil. Belə olan vəziyyətdə Rusiya-Türkiyə münasibətlərinin artırılması, həmçinin qarşılıqlı etimadın yaranması özünü daha çox qabarıq şəkildə göstərməkdədir.***

### Lavrov da İstanbulu seçir

"Rusiya və Ukrayna arasındakı danışıqlar İstanbulda bərpa olunacaq". SİA xəbər verir ki, bu sözləri Rusiyanın xarici işlər naziri Sergey Lavrov Serbiya mətbuatına verdiyi müsahibəsində bildirib. Kremlin xarici diplomatik idarəsinin başçısı Putin və Zelenskinin mümkün görüşü məsələsinə münasibətini şərh edərkən qeyd edib ki, Putin heç vaxt Zelenski ilə görüşdən imtina etməyib. "Lakin indi fikir mübadiləsi üçün istənilən görüş məhsuldar olmayacaq. Rusiya üçün əsas məsələlərin nəticələrinə aydınlıq gələn kimi Putinlə Zelenski arasında görüşə ehtiyac duyulacaq".



Məhz bu fonda ikinci raund görüşün İstanbulda keçirilməsi qərarı, daha dəqiq desək, Antaliyada keçirilən ilk görüşdən sonra ikinci görüşün yenə də Türkiyə ərazisində keçirilməsi Moskvanın Ankaranın xeyrinə olan jesti kimi də qiymətləndirilə bilər.

Başqa tərəfdən, sözügedən situasiya yalnız danışıqların hansı nəticələrlə başa çatmasını ehtiva etmir. Danışıqlar nəticəsiz qala bilsə belə qarşılıqlı addımların atılması baxımından Türkiyənin ortaq vasitəçi kimi qəbul edilməsi Ankaranın regiondakı əhəmiyyətini nümayiş etdirir.

### Azərbaycanın əsl və əbədi müttəfiqinin əldə etdiyi diplomatik güc balansı Bakının da bənzər proseslərə qatılmasına kifayət qədər yol açır, zəmin verir

Belə olan situasiyada, yəni Türkiyənin balanslı siyasət aparması halında onun sarsılmaz müttəfiqi Azərbaycana da müsbət təsirlərinin ola biləcəyini istisna etmək olmaz. Hətta belə bir nəticə də hasil edə bilərik - Azərbaycanın əsl və əbədi müttəfiqinin əldə etdiyi diplomatik güc balansı Bakının da bənzər proseslərə qatılmasına kifayət qədər yol açır, zəmin verir.

Məsələn, nəzərə alsaq ki, Rusiyanın Ukrayna ilə müharibəsinin müddəti get-gedə uzanır və qarşıdakı vaxtlarda danışıqların nəticəsi olaraq ortaq konsensusa nail olunmayacaqsa, bu zaman Türkiyədən fərqli olaraq hər iki ölkə ilə - həm Rusiyaya, həm də Ukraynaya daha yaxından bələd olan Azərbaycan öz sülhə dəvət etmə missiyasını icra edə bilər. Hətta Ankara həmin missiyanı Bakıya transfer etməklə öz dəstəyini də göstərər. Nəticədə üçüncü, yaxud dördüncü raundların Azərbaycana transfer edilməsi prosesinə başlanılar.

Daha bir məqamı da xatırlatmaq yerinə düşərdi ki, bu günə qədər Bakı bir neçə dəfə bənzər görüşlərə ev sahibliyi edib. Misal üçün, NATO-Rusiya, Pentaqon-Rusiya MN, ABŞ və Rusiyanın Baş qərargah rəislərinin görüşlərini nümunə kimi göstərə bilərik.

Ancaq ümid edək ki, İstanbul görüşünün nəticələri tərəflərin bir məntiqə gələ biləcəklərinə öz təsirlərini göstərə bilər, baş verən müharibə durdurular. Lakin ən əsası budur ki, aparıcı Qərb dövlətlərinin qarşısında Rusiya-Ukrayna arasındakı növbəti danışıqlar raundunun da qardaş və müttəfiq Türkiyədə keçirilməsi qərarı regional maraqlar baxımından Ankaranın strateji diplomatiya xəttinin ən yüksək səviyyədə olduğunu sübuta yetirir və sülhün bərpa edilməsinə öz müsbət təsirlərini göstərəcək.

***Rövşən RƏSULOV***

# "Putinin mövqeyi ilə Rusiya MN-nin mövqeləri arasında kəskin fərq mövcuddur"



**"ATƏT-in Minsk Qrupu təşkil edilən dövrdən Rusiyanın Qarabağ probleminin həlli ilə bağlı məsələlərə münasibətdə sərgilədiyi mövqe Minsk qrupunun digər iki həmsədr dövləti ABŞ və Fransanın mövqeləri kimi ikili standartlarla üst-üstə düşmüşdür". Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.**

Onun sözlərinə görə, Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olaraq tanımaqla yanaşı Rusiya danışıqların gedişində daha çox erməni tərəfinin maraqlarına cavab verən mövqe tutmuşdur: "Münaqişənin uzun müddət öz həllini tapmamasının da səbəbi BMT TŞ-nin daimi üzvi olan və Minsk Qrupunda yer alan məlum dövlətlərin elə BMT TŞ-nin zamanında münaqişənin həllinə təsir göstərə biləcək məlum qətnamələrinin icrası istiqamətində qərar qəbul etmək, işğalçı dövlətə münasibətdə beynəlxalq hüququn nəzərdə tutduğu məlum tədbirləri görmək istəməmələri olmuşdur. İkili standartlar, xristian təəssübkeşliyi, bölgədəki geopolitik maraqların üst üstə düşməməsi münaqişənin uzanmasının, danışıqların məhz danışıqlar naminə aparılmasının əsas səbəblərindən olmuşdur. Azərbaycan ordusu öz ali baş komandanı ilə birgə BMT TŞ-nin məlum münaqişə ilə bağlı qətnamələrinin icrasını öz üzərinə götürüb həll etdikdən sonra belə məlum bəlli dairələr bölgədəki yeni geosiyasi reallıqları görməzdən gələrək bu reallıqları dəyişmək, məğlub erməni tərəfinin küskünlüyünə yol verməmək uçun məsuliyyətsiz bəyanat və açıqlamalar verirlər, Rusiya MN-nin Qarabağda yaşanan məlum gərginliklə bağlı verdiyi sonuncu bəyanat da bu baxımdan istisna təşkil etməyib".

E.Manafov onu da bildirdi ki, Azərbaycanı 2020-ci ilin noyabr razılaşmalarının şərtlərini pozmaqda ittiham edən tərəf olaraq Rusiya nədənsə bu razılığın məhz onun moderatorluğu ilə əldə edildiyini unudur və eyni zamanda vasitəçi tərəf, habelə bölgəyə öz hərbi kontingentini sülhməramlılar adi altında yeridən dövlət olaraq Moskva razılaşmasının məlum şərtlərinin yerinə yetirilməsi uçun məsuliyyət daşıyan tərəflərdən olduğunu unudur: "Rusiya unudur ki, indiyədək Azərbaycana aid olan Qarabağ torpaqlarından işğalçı Ermənistan dövlətinin hərbi qüvvələrin çıxarılmamasına görə məsuliyyət daşıyır, zira öhdəlik götürən tərəf olaraq. Halbuki Azərbaycanla münasibətlərin müttəfiqlik müstəvisi üzərinə çıxarmaqla Rusiya müttəfiq dövlət olaraq Azərbaycanın ərazi bütövlüyünə hörmət edəcəyi, onun daxili işlərinə qarışmayacağı, terrorizm və separatizmə qarşı ölkəmizlə birgə mübarizə aparacağı ilə öhdəliklər götürmüşdür. Görünən odur ki, Qarabağ probleminin perspektiv həllinə münasibətdə Rusiya prezidenti, ali baş komandan V.Putinin mövqeyi ilə Rusiya MN-nin mövqeləri arasında kəskin fərq və təzadlar mövcuddur. Azərbaycan müasir dövrün qlobal çağırışlarından birinə tək qütblü, yoxsa çox qütblü dünyanın yanında olması ilə bağlı məsələyə Rusiya ilə münasibətləri müttəfiqlik müstəvisi üzərinə çıxarmaqla qəti və birmənalı cavab vermiş oldu. Ukraynadan fərqli olaraq öz milli təhlükəsizliyini Rusiyanın Təhlükəsizlik maraqlarını təhdid etməməklə bağlı mövqe sərgilədiyindən Rusiyada da bu məsələdə adekvat və həm də müttəfiq elan etmiş dövlətin suveren və Təhlükəsizlik maraqlarına cavab verən və bu maraqlar əsla təhdid etməyən mövqe sərgiləməyə borcludur, əks halda Rusiya Azərbaycan dövləti və xalqının etibarını itirə bilərik ki, Hazırda Ukraynada Rusiya və Qərb arasında yaşanan və getdikcə yüksələn gərginlik şəraitində bu tendensiya əsla Rusiya maraqlarına cavab verməyəcək və bölgədə onun nüfuzuna xələl gətirərək məlum qlobal maliyyə mərkəzlərinin maraqlarına cavab verəcək geopolitik durumun formalaşmasına təsir göstərə bilər".

***Gülyana***



# "Dərc olunan faktlar tamamilə saxtadır"

"Azərbaycan Ordusu azad etdiyi və ya son günlərdə yerləşdiyi heç bir mövqedən bir addım belə olsun kənara addım atmayıb. Sosial şəbəkədə yayılan və Rusiya Müdafiə Nazirliyinin informasiya bülletenində dərc olunan faktlar tamamilə saxtadır". Bu sözləri SİA-ya açıqlamasında hərbi-ekspert Ədalət Verdiyev deyib. Onun sözlərinə görə, çox təəssüflər olsun ki, Azərbaycanla müttəfiqlik müqaviləsi olan, sülhməramlı fəaliyyətləri üçün ölkəmizə dəvət edilən Rusiya Müdafiə Nazirliyinin rəsmi qurumları bizə qarşı belə məsuliyyətsiz və məntiqsiz bir kampaniya aparırlar: "Ərazi barədə də məlumatım var. Əsgərlərimizin psixoloji durumu və ruh yüksəkliyi qaydasındadır. Fərrux kəndində və yaxınlığındakı yüksəklikdə Azərbaycan bayrağı dalğalanmaqdadır".

Ədalət Verdiyev sözlərinə belə davam edib: "Azərbaycan bundan sonra da ərazidən yeni yerdəyişmələr həyata keçirmək niyyətindədir. Əgər Rusiya sülhməramlıları üzərinə düşən funksiyaları, o cümlədən, erməni silahlılarının ərazidən çıxarılmasını ən qısa zamanda yerinə yetirməsələr, BMT qətnamələrini tək yerinə yetirən Azərbaycan ordusu bu dəfə Üçtərəfli Birgə bəyanatı təkbaşına yerinə yetirəcək".

***Ayşən Vəli***

# Qarabağda baş verən son hadisələrə cəmiyyətin reaksiyası

44 günlük Vətən Müharibəsində Ali Baş Komandan İlham Əliyev və müzəffər ordumuz böyük şücaət göstərərək işğal olunmuş torpaqlarımızı işğaldan azad edib. 30 ildir ki, düşmən tapdağı altında olan torpaqlarımızın azad olunması Azərbaycanın gücünü bütün dünyaya çatdırdı. Azərbaycan heç bir zaman başqasının torpaqlarına göz dikməyib. Yanlız öz haqq işini dünyaya çatdırmaq istəyirdi. Buna da nail oldu. Xocalı rayonunun Fərrux kəndi artıq Azərbaycan dövlətinin nəzarətindədir. Bu bizim dövlətimizin növbəti uğurudur. SİA olaraq Fərrux kəndinin azad olunması ilə bağlı şəhər sakinləri arasında sorğu keçirdik:

**Şəhər sakini Nazilə Məmmədova:** "Mən arzulayıram ki, bütün torpaqları-



mıza Azərbaycan nəzarət etsin, yurd yerlərimizə özümüz sahiblik edək. Fərrux kəndində Azərbaycan bayrağının dalğalanmaşı qürurvericidir. O gün olsun ki, bütün ərazilərimizdə, qədim torpaqlarımızda Azərbaycan bayrağı dalğalandırılsın".

**Şəhər sakini Bayar Ağayev:** "Çox gözəl hissdir. Biz bu torpaqların əsl sahibiyik. Əsrlər boyu bu torpaqlar bizim olub. Vaxt olub mənfur düşmənlərimiz tərəfindən işğal olunub. Ordumuz və Prezidentimiz sayəsində torpaqlarımız



geri alındı".

**Şəhər sakini Səid Kazıkkaya:** "Bu torpaqların hamızı bizim torpaqlarımız-



dır. Bizim vətənimizdir. Vətəndən pay olmaz. Əlbəttə ki, qürurverici bir hissdir. Biz torpaqlarımızı düşmən əlindən azad etdik".

**Şəhər sakini Nazilə Əbdürəhmanova:** "Qarabağ bizimdir! Biz bütün



torpaqlarımızı azad edəcəyik. Azərbaycanın güclü ordusu var. Dövlət başımızın siyasəti nəticəsində bütün dünya bizim gücümüzü gördü".

**Şəhər sakini Arif İsmayılov:** "Xalqımız dövlətimizə və ordumuza güvə-



nir. Onlar bizə Zəfəri qazandırdı. Torpaqlarımız işğaldan azad etdi. Bu yolda neçə-neçə şəhid verdik. Allah hamısına rəhmət eləsin".

**Şəhər sakini Hüsniyyə Rəhimova:** "Sevinirik ki, bayrağımız işğaldan



azad edilmiş torpaqlarda dalğalanır. Fərrux bizimdir! Bu torpaqda çoxlu şəhid vermişik. Allah onlara rəhmət eləsin. Onlar sayəsində biz bu günləri gördük".

***Abutel İlhamqızı***

## "Azərbaycan dövləti Qarabağda, Fərruxda istənilən silahlı birləşməni zərərsizləşdirməyə məcburdur"

"1988-ci ildən keçmiş SSRİ-nin siyasi rəhbərliyinin dəstəyi ilə qədim Azərbaycan-türk torpağı olan Qarabağda baş verənlər, nəticədə SSRİ dağıldıqdan sonra da ermənilərə dəstəyini davam etdirən Kremlin hərbi və siyasi yardımı ilə Azərbaycanın beynəlxalq qurumlar tərəfindən tanınmış suveren ərazilərinin işğal olunması bu gün bütün dünyaya məlumdur". Bu fikirlər Azərbaycanın Fərrux kəndində baş verənlərlə bağlı Azadlıq Hərəkatçıları İctimai Birliyinin yaydığı bəyanatda deyilir. Bəyanatda qeyd edilir ki, haqdan, ədalətdən, dövlətlərin ərazi bütövlüyündən ağızdolusu danışan güc mərkəzlərinin bu işğal faktına seyrçi yanaşması da sirr deyil: "Qarabağın Xocalı şəhərində, Qaradağlıda, Ağdabanda və digər yaşayış məntəqələrində misli görünməmiş vəhşiliyin, uşaq, qoca, qadın demədən minlərlə günahsız dinc əhaliyə qarşı soyqırımların törədilməsi foto-video görüntülərlə təsdiq olunsa da, erməni faşizminin başbilənləri Zori Balayan, Robert Koçaryan, Serj Sarkisyan kimi qəsbkarların öz ifadələri ilə etiraf edilsə də, dünya birliyinin bütün bunları görməzdən gəlməsi ikili standartların bariz nümunəsidir. BMT Təhlükəsizlik Şurasının işğal faktı ilə bağlı qəbul etdiyi dörd məlum Qətnamə otuz ilə yaxın bir müddətdə icra olunmadan qaldığı halda, beynəlxalq ədalətin mövqeyindən səbri tükənən Azərbaycan xalqı, nəhayət, 2020-ci ilin payızında 44 günlük ədalətli savaşla ərazi bütövlüyünü təmin etməк məcburiyyətində qaldı. Bütün baş verənlərə on illər boyu seyrçi münasibətlə yanaşan bəzi dövlətlərin siyasi rəhbərliyinin cəhdlərinə baxmayaraq Azərbaycan xalqı beynəlxalq hüququn ona verdiyi yetkiyə dayanaraq işğal faktını aradan qaldırdı. İndi qarşıda duran əsas vəzifə regionda uzunmüddətli sülhün, əmin-amanlığın bərqərar olunmasından ibarətdir. Bu da danılmaz həqiqətdir ki, Azərbaycan tərəfi müharibəni qazanmış qalib tərəf olmasına rəğmən, yenə də Ermənistanı sülhə dəvət etməkdə, bunun üçün lazım olan bütün addımları atmaqda davam edir".



Bəyanatda o fikir də vurğulanır ki, son günlər Ermənistanın və Qarabağda hələ də varlığını qoruyub saxlamaq istəyən separatçı silahlı xuntanın saxta qışqırtıları, əsası olmayan, regionda sülhə xələl gətirən bəyanatları bəzi ermənipərəst güclər tərəfindən dəstəklənməkdə davam edir: "ABŞ Dövlət Departamentinin, Rusiya Federasiyası Müdafiə Nazirliyinin, bir sıra özünü demokratiyanın dəstəkçisi kimi qələmə verən qeyri-hökumət təşkilatlarının bu yalanların, yersiz qışqırtıların ayaq tutub yeriməsinə rəvac verməк istəmələri, bu baxımdan Azərbaycan xalqını narahat etməyə bilməz. Anlaşılmaz bir haldır ki, Ukraynanın Donbass, Luqansk və Krım bölgələrində baş verən separatizm faktlarına qarşı atdığı addımları haqlı olaraq Ukraynanın ərazi bütövlüyünün qorunması, suveren hüquqlarının bərpası kimi təqdir edən bəzi qərb dövlətləri, Azərbaycana qarşı fərqli mövqe sərgiləməkdə davam edirlər. Qarabağdakı qeyri-qanuni erməni hərbi birləşməsi tərəfindən Azərbaycan hərbçilərinin mövqelərinin atəşə tutulması, Azərbaycan ərazilərinə daxilində mühəndis-istehkam qurğuları tikməsi kimi beynəlxalq hüquqa zidd addımlara səsini qaldırmayan bəzi dövlətlərin və qurumların Azərbaycanın öz ərazilərində hərbi dislokasiyasına müxtəlif bəhanələrlə mane olmağa cəhd göstərilməsi isə dözülməzdir. Xüsusilə, Qarabağda sülhü bərqərar etməli olan Rusiya Federasiyasının bəzi qurumlarının Fərrux kəndi ilə bağlı bəyanatları, ən azı təəssüf doğurur. Rusiya Prezidentinin də iştirakı ilə imzalanmış üçtərəfli Bəyanatların, xüsusilə Rusiya ilə Azərbaycanın arasında imzalanmış ikitərəfli müttəfiqlik aktının ruhuna tamamilə zidd olan belə yanaşma, heç şübhəsiz, Rusiyanın münaqişənin həllində tərəfsiz olmadığını göstərir. Bu isə Sülhyaratma missiyası ilə bir araya sığmayan faktor kimi bu ölkəyə inamın itməsinə səbəb ola bilər. Fərrux kəndi Azərbaycanın Ağdam rayonunun inzibati-ərazi bölgüsünə daxil olan yaşayış məntəqələrindən biridir və buraya insanların yenidən qayıtmalarını təmin etmək üçün onların təhlükəsizliyi təmin edilməlidir. Bu, adi beynəlxalq insan hüquqlarına aid məsələdir və Azərbaycan dövləti vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün bütün ərazilərində, o cümlədən Qarabağda, Fərruxda istənilən silahlı birləşməni zərərsizləşdirməyə məcburdur. Bütün mənalı ömrünü Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş fədakar insanların təşkilatı olan Azadlıq Hərəkatçıları İctimai Birliyi dünya dövlətlərini, beynəlxalq qurumları, xüsusilə 30 ilə yaxın bir müddətdə Qarabağ problemini həll etmək missiyasını üzərinə götürüb heç bir nəticəyə nail olmayan Minsk Qrupu həmsədrləri olan dövlətləri, nəhayət, ikili standartlara son qoymağa, baş verənlərə beynəlxalq hüququn tələbləri prizmasından yanaşmağa, bölgədə daimi sülhün, əmin-amanlığın yaradılması üçün Azərbaycanın atdığı hüquqi və ədalətli addımlara dəstək verməyə dəvət edir".

## "Rusiyanın medianı bloklama siyasəti söz azadlığına və plüralizmə ziddir"

"Məlum olduğu kimi, Rusiyanın Rabitə, İnformasiya Texnologiyaları və Kütləvi İnformasiya Vasitələrinə Nəzarət Federal Xidmətinin qərarı ilə Azərbaycanda fəaliyyət göstərən Oxu.Az saytı Rusiya ərazisində bloklanıb. Bundan əvvəl "Haqqin.az" və "Minval.az" saytları ilə bağlı da analoji qərar qəbul edilib. Birmənalı demək olar ki, qəbul edilən bu qərarlar söz azadlığı və plüralizm prinsiplərinə ziddir. Bu baxımdan Rusiyanın dövlət qurumu tərəfindən Azərbaycanın xəbər saytlarına qarşı münasibətdə ifadə azadlığına zidd olaraq qəbul edilən bloklama qərarı təəssüf doğurur". SİA xəbər verir ki, bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, Mətbuat Şurası İdarə heyətinin üzvü, siyasi elmlər doktoru Vüqar Rəhimzadə açıqlamasında bildirib.



V.Rəhimzadə qeyd edib ki, Azərbaycan mediası həm ölkə daxilində, həm də respublikamızın hüdudularından kənarda baş verən ictimai-siyasi və digər hadisələrlə bağlı heç bir tərəf tutmadan, obyektiv, balanslı xəbər təqdim etməklə cəmiyyətin informasiya tələbatını ödəmək üçün peşəkarlıqla fəaliyyət göstərir: "Hesab edirəm ki, belə olan halda Rusiyanın obyektiv xəbər təqdim edən bəzi Azərbaycan saytlarına qarşı tətbiq etdiyi bloklama qərarı bəşəri dəyərlərə hörmətsizlik, söz və ifadə azadlığının kobud şəkildə pozulmasıdır. Bu fakt bir daha göstərir ki, Rusiyanın müvafiq orqanları ölkə ərazisində obyektiv xəbərin yayılmasını istəmirlər. Şimal qonşumuzun müvafiq dövlət qurumlarının belə köhnəlmiş metodla ifadə azadlığına zidd qərarları Rusiya cəmiyyətinin də obyektiv, alternativ mənbədən xəbər almaq imkanlarını məhdudlaşdırır. Təbii ki, Rusiyanın belə addımları ölkənin informasiya məkanının qorunması kimi qəbul edilə bilməz. Çünki Azərbaycan mediasının yaydığı xəbərlər tam obyektivlik, qərəzsizlik və tərəfsizlik prinsiplərinə əsaslanır. Ölkəmiz Ukraynada gedən müharibə ilə bağlı informasiya mübarizəsində də tərəf olmadığı üçün media mənsublarımız rəsmi dövlət orqanlarına istinadən obyektiv xəbərləri yayırlar. Bütün bunlardan belə nəticə çıxır ki, Rusiya tərəfi obyektiv, doğru məlumatların yayılmasında, həqiqətlərin ölkə və dünya ictimaiyyətinə çatdırılmasında maraqlı deyil".

Baş redaktor bildirib ki, Rusiya tərəfinin Azərbaycanın media orqanlarının fəaliyyətinə belə yanaşması iki ölkə arasında imzalanmış müttəfiqlik qarşılıqlı münasibətlərinə dair Bəyannamənin tələblərinə ziddir: "Halbuki 44 günlük Vətən müharibəsi zamanı Rusiya da daxil olmaqla bir sıra ölkələrin bəzi media orqanları Azərbaycan Ordusunun apardığı hərbi əməliyyatlarla bağlı qərəzli, obyektivlikdən kənar məlumat yaymaqla məşğul idilər. Bəzi Rusiya telekanalları və saytları Vətən müharibəsi zamanı ölkəmizə qarşı birbaşa əks-təbliğat aparır, birtərəfli, erməni tərərfinin mövqeyini əks etdirən qərəzli məlumatlar yayırdılar. Bütün bunlara baxmayaraq Azərbaycan dövləti müharibə getdiyi bir vaxtda belə antidemokratik addım atmadı. Çünki Azərbaycan öz ərazisində işğalçılara qarşı ədalətli döyüş əməliyyatları həyata keçirirdi. Dövlətimiz Vətən müharibəsi zamanı müharibə qanunlarına tam əməl etdiyi kimi, media azadlığı prinsipinə də sadiqlik nümayiş etdirərək, heç bir xarici saytın və ya televiziya kanalının ölkə ərazisində yayımını bloklamadı".

Vüqar Rəhimzadə ümid etdiyini bildirib ki, Rusiya tərəfi söz, ifadə azadlığının kobud şəkildə pozulması faktını aradan qaldıraraq, Azərbaycan saytlarına tətbiq etdiyi qadağanı ləğv edəcək.

# Tarixi yaddaşımızdan silinməyən soyqırım

**Azərbaycan tarixində unudulmaz, əbədi olaraq yaddaşlara həkk olunan günlər çoxdur. Bu günlərin bir qismi şanlı tariximizi, onun qəhrəmanlıq səhifələrini əks etdirir və qürurverici hadisələrlə yadda qalıb. Lakin çox təəssüflər olsun ki, bu günlərin bir qismi Azərbaycanın çox ağır sınaqlardan çıxması, xalqımıza qarşı törədilən qanlı cinayətlər, repressiyalar, deportasiyalar, terror aktları, soyqırımları ilə yadda qalıb. Soydaşlarımız zaman-zaman etnik təmizləmə siyasəti ilə üzləşib, öz tarixi torpaqlarından deportasiya olunub, kütləvi şəkildə terrora məruz qalıblar. Tariximizin faciələr və soyqırımları, müsibətlərlə dolu səhifələrindən biri də 1918-ci ilin mart-aprel aylarında yaşanan hadisələrdir. Sovet hakimiyyəti dövründə təxminən 70 il bu hadisələri xalqın qan yaddaşından silməyə cəhdlər göstərilsə də, bu, mümkün olmadı və nəhayət, həqiqət anı yetişdi.**

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yarandı. İndi uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər bir-bir açılır. Ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Əllərinə düşən fürsətdən istifadə edən ermənilər uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçirdilər, diri-diri yandırdılar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtdılar. Bakının böyük bir hissəsini xarabalığa çevirdilər. Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirildi. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirildi, şəhər və kəndlər yandırıldı, milli mədəniyyət abidələri dağıdılıb məhv edildi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını - ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. Martın 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü elan olundu. Bununla da azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət verməyə cəhd göstərildi. Lakin Cümhuriyyətin süqutu bu sahədə başlanmış işi yarımçıq qoydu.




Tarixin səhifələri vərəqləndikcə yeni-yeni faktlar, erməni vəhşiliyinin tükürpədən səhnələri üzə çıxır. Son vaxtlar məlumatların dəqiqləşdirilməsi istiqamətində axtarışlar genişləndirilir. Təkzibolunmaz arxiv sənədləri, soyqırımlarını təsdiqləyən çoxsaylı dəlil-sübutlar aşkarlanır. Məsələn, Şamaxıda 1918-ci ilin mart-aprel aylarında öldürülənlərin sayına gəlincə, bəzi məlumatlarda bu rəqəmin 7 min, bəzilərində 8-12 min, hətta 40 min olduğu göstərilir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılan Fövqəladə İstintaq Komissiyasının sənədlərində 1918-ci ilin mart-aprel aylarında Şamaxı qəzasında azərbaycanlılar yaşayan 58 kəndə ermənilərin hücumu zamanı 3632 kişinin, 1771 qadının, 956 uşağın vəhşicəsinə öldürüldüyü qeyd olunurdu. Lakin ekspertlərin digər arxiv sənədləri əsasında apardıqları hesablamalara görə, Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlı qətlə yetirilib. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın, 1277 nəfəri uşaq olub. Digər bir mənbədə isə Şamaxının 72 kəndində ermənilərin 7 min nəfəri, o cümlədən 1653 qadın və 965 uşağı öldürdüyü bildirilir. Fövqəladə İstintaq Komissiyası tərəfindən həmin dövrdə Şamaxı qəzasındakı 120 kəndin 86-sının erməni təcavüzünə məruz qaldığı təsdiqlənib. Komissiya öz işini dayandırdığından digər 34 kənd haqqında məlumat toplamaq mümkün olmayıb.

Şamaxıda 1918-ci ilin mart-aprel aylarında öldürülənlərin sayının dəqiqləşdirilməsi ilə bağlı ötən əsrin 90-cı illərindən etibarən yerli tədqiqatçılar da bir sıra araşdırmalar aparıblar. Onların tədqiqatı nəticəsində (yüz nəfərə yaxın şahiddən toplanan xatirə və məlumatlar) müəyyən edilib ki, erməni cinayətkarları - S.Şaumyan, S.Lalayev, Z.Arestisyan, T.Əmirov və A.Əmiryan qardaşlarının rəhbərliyi ilə Şamaxı şəhərində təqribən 14-16 min, onun 40 kənd və obasında 6-8 min nəfər qətlə yetirilib.





Şamaxı qəzasından didərgin düşənlərin sayı isə 18 min nəfərdən çox olub.

Bakıda təkcə bir həftə ərzində 12 mindən çox insan, əksəriyyətini dinc sakinlər təşkil edən və əsas etibarilə müsəlman əhali vəhşicəsinə qətlə yetirilmişdi. Bolşevik-daşnak dəstələri hətta azərbaycanlılara həlak olmuş yaxınlarını dəfn etməyə icazə vermirdi. Onlar cəsədləri yanan binalara atır, quyulara, dənizə tökürdülər. Bakıda Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin tam hakimiyyətinin bərqərar olması qurbanların dəqiq sayının hesablanmasına imkan vermədi. Lakin İranın Bakıdakı konsulu Məhəmməd Səid-ol Vesarə Marağeyinin yazdığına görə, təkcə onun yaratdığı xüsusi komissiya tərəfindən Bakının küçə və həyətlərindən 5000-dən çox müsəlmanın meyiti toplanmış və dəfn olunmuşdu. Menşeviklərin "Naş qolos" qəzeti həmin günləri belə təsvir edirdi: "Hər tərəf meyitlərlə doludur - yanıb kül olmuş, doğranmış, eybəcər hala salınmış meyitlər ".

Britaniya briqada generalı R.Qortonun Londona göndərdiyi 1918-ci il 8 dekabr tarixli sənəddə 20 min, Fövqəladə İstintaq Komissiyasının sənədlərində 30 min, Azərbaycan Respublikası Milli Məclisinin nəşr etdiyi kitabda isə 50 mindən çox müsəlmanın soyqırımına məruz qaldığı göstərilir. Yəqin ki, bu da son rəqəmlər deyil.

Tarix 74 il sonra yenidən təkrarlandı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində ermənilərin zaman-zaman törətdikləri qanlı qırğınların davamı olan daha bir dəhşətli soyqırımı baş verdi. Hücum zamanı şəhərdəki 3 min nəfərdən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürüldü, 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralandı, 1275 nəfər girov götürüldü və insanı alçaldan işgəncələrə məruz qaldı.







Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işində xüsusi mərhələ təşkil edir. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılır, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olur, Xocalı faciəsini soyqırımı kimi tanıyan dövlətlərin, beynəlxalq təşkilatların sayı getdikcə artır.



Ulu öndər Heydər Əliyevin tarixi Fərmanından ötən illər ərzində aparılmış araşdırmalar sayəsində bir çox yeni faktlar və sənədlər toplanıb, Quba şəhərində kütləvi məzarlıq aşkarlanıb. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirir.

Prezident İlham Əliyevin 2018-ci il yanvarın 28-də imzaladığı Sərəncama əsasən, 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi təkcə Azərbaycanda deyil, dünyanın bir çox guşələrində yaşayan həmvətənlərimiz, diaspor təşkilatları, xaricdəki səfirliklərimiz tərəfindən geniş qeyd olundu. Erməni-bolşevik silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə KİV-lərdə məqalələr dərc edilir.

Bu faciələr tariximizin bütün dövrlərində dəfələrlə təkrarlanmış həqiqətlərdir və bunları unutmağa mənəvi haqqımız yoxdur. Azərbaycan xalqı faciə qurbanlarının xatirəsinə hər zaman xüsusi qayğı və sevgi ilə yanaşır. Xalqımız qəhrəman qızlarını və oğullarını heç zaman unutmayacaqdır!.

***Tofiq Cahangirov,***
***YAP İdarə Heyətinin üzvü***

# YAP Səbail rayon təşkilatında qazilərlə görüş keçirilib





**Dünən Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatının təşkilatçılığı ilə Novruz bayramı münasibətilə Vətən müharibəsi iştirakçıları ilə görüş keçirilib. SİA xəbər verir ki, tədbirdə YAP Səbail rayonu təşkilatının sədri Muxtar Nağıyev, İstiqlaliyyət 6 ərazi partiyasının sədri Mikayıl Zeynalov, YAP Səbail rayon təşkilatının fəal üzvləri Elşad Əliyev, Hacı Rövşən və digərləri iştirak edib.**

Tədbiri giriş sözü ilə açan YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev bildirib ki, Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı olaraq daima qazilərimizlə bir yerdə olmağı özümüzə şərəf bilirik: ”Bu daima olaraq davam edir. Bildiyiniz kimi Novruz Bayramı hələ də davam edir. Bu məqsədlə də biz sizinlə bayram ərəfəsində görüşmək istədik. YAP Səbail adından Novruz Bayramınızı təbrik edirəm. Sizin hər birinizə uzun ömür, can sağlığı, ailə səadəti arzu edirəm. Biz hər zaman gücümüz çatdığı qədər yanınızda olmağa çalışırıq. Nəzərinizə çatdırım ki, Xocalı rayonunun Fərrux kəndində artıq Azərbaycan bayrağı dalğalanır. Havanın şaxtalı və soyuq olmasına baxmayaraq Azərbaycan əsgərləri torpağımızı işğaldan azad etdi”.

Daha sonra tədbirdə iştirak edən YAP Səbail rayonunun fəal üzvləri Elşad Əliyev və 1-ci Qarabağ müharibəsinin qazisi Hacı Rövşən qonaqları və Vətən müharibəsinin iştirakçılarını salamlayaraq, onlara öz minnətdarlıqlarını bildiriblər.

Tədbirdə çıxış edən İstiqlaliyyət 6 ərazi partiyasının sədri Mikayıl Zeynalov qazilər və müharibə veteranlarını Novruz Bayramı münasibətilə təbrik edib: ”Sizə uzun ömür can sağlığı, gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm. Həmçinin YAP Səbail rayon təşkilatının rəhbərliyinə başda Muxtar bəyə öz təşəkkürlərimi bildirirəm ki, belə bir tədbir təşkil edib. Biz mütəmadi olaraq YAP Səbail rayon təşkilatının belə tədbirləri keçirməsinin canlı şahidi oluruq. Müharibə iştirakçıları və qazilərimizlə gözəl günlərimizi paylaşmaq doğurdan da şərəfli və müqəddəs bir hadisədir. Bütün müharibə iştirakçılarına respublika səviyyəsində hörmət və qayğı göstərilir. Bunların hər birinin səbəbkarı Ali Baş Komandan İlham Əliyevdir. Biz hamılıqla möhtərəm Prezidentə öz təşəkkürümüzü bildiririk. Məhz Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi siyasət və həmin siyasəti bu gün də həyata keçirən İlham Əliyev sayəsində biz 30 ildən sonra torpaqlarımıza geri döndük”.

Tədbirdə çıxış edən Zərifə Əliyeva 96 ərazi partiya təşkilatının sədri Piralı Əliyev qaziləri salamlayaraq, bayram münasibəti ilə onları təbrik edib: ”Azərbaycan ordusunun Ali Baş Komandanına öz minnətdarlığımı bildirirəm. Mənim qardaşım da torpaqlarımız uğrunda döyüşüb və şəhid olub. İlham Əliyev 200 illik Azərbaycan tarixində alınan torpaqlarımızın geri qaytaran ilk sərkərdədir. Bunların hər biri bizim dəyanətli ordumuzun və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sayəsində həyata keçib”.

Daha sonra tədbirdə partiya sədrləri İsrafil Bəkirov, Soltanəli Qurbanov, Müşfiq Mustafayev qazilərimizi salamlayaraq, Azərbaycan torpaqlarının alınmasında göstərdikləri şücaət üçün təşəkkürlərini bildirib və bayramlarını təbrik ediblər.

Sonda isə YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev 44 günlük Vətən müharibəsində iştirak etdikləri üçün müharibə iştitakçılarını diplomla təltif edib.

***Banuçiçək Hüseynli***

# “Human Rights Watch” özünü ifşa edir”

“Human Rights Watch”ın Azərbaycana qarşı qərəzli, ədalətsiz və tez-tez şantaj xarakterli bəyanatlar səsləndirməsi ilk dəfə deyil. Ümumiyyətlə, bu təşkilatın əsasən erməni maraqlarından çıxış etməsi ənənə xarakterini alıb. Bu baxımdan, adıçəkilən qurumun Avropa və Mərkəzi Asiya üzrə direktor müavini Georgi Qogiyanın (Giorgi Gogia) tvitində son iki həftədə ikinci dəfə Azərbaycanın nəzarət etdiyi və suveren ərazisindənin keçən qanunsuz qaz kəmərinə görə ”Dağlıq Qarabağ əhalisinin dondurucu soyuqda istiliksiz qaldığını” deməsi açıq-aşkar qərəzli, erməni lobbisi tərəfindən verilən ”ev tapşırığı” olduğunu açıq-aydın nümayiş etdirməkdədir”.

Bu fikirləri SİA-ya ”Ailə Dünyası” Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri, tanınmış sosial ekspert və ictimaiyyətçi Gülayə Səfərova mövzu ilə bağlı açıqlamasında deyib. Onun sözlərinə görə, guya sözdə humanizm prinsiplərindən dəm vuran ”Human Rights Watch”ın yetkilisi əslində ikili stnadartlarla çıxş etməsi ilə yanaşı, həm də ədalətli yanaşma, doğru nəticə çıxarma düşüncəsindən nə qədər uzaq olduğunu sübuta yetirmiş olur: ”Maraqlıdır, cənab Qogiya nəyə görə Vətən müharibəsi zamanı Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı tətbiq etdiyi vəhşilikləri yada salmır, Gəncənin, Bərdənin, Tətrətin, Mingəçevirin ballistik raketlərlə hədəfə alınması, qadın və uşaqlarımızın, qocalarımızın qətlə yetirilməsi haqqında etirazlı səsini ucaltmır? Əlbəttə, həqiqəti demək, doğru nəticəni çıxarmaq beləl追rinə sərf etmir, əks halda qulluq göstərdikləri dairələr onların yemlərini kəsə bilər, necə deyərlər, çörəksiz qalarlar. Bu xüsusda, ”Human Rights Watch” adlı təşkilat yetkilisinin hansısa qərəzli bəyanat yaymasının, sosial şəbəkə vasitəsi ilə fikir bildirməsinin nə əsası, nə də məntiqi var”.

”Əslində, hər kəs öz işi ilə məşğul olmalı və işini dürüst görməlidir”, deyən tanınmış ictimaiyyəti və sosial ekspert bir sıra digər arqumentləri də önə sürüb.

Gülayə Səfərovanın sözlərinə görə, isterik şəkildə ”humanitar fəlakət” pərdəsi altında yazılan tvit birbaşa erməni diasporunun, lobbiçi təşkilatlarının ABŞ-dakı, Fransadakı dairələrinin sifarişidir. Lakin gəlin görək, ”Human Rights Watch” rəsmisi səs-küy saldığı ”qaz fəlakəti” haqqındakı ”məzlumkeş”, ”əzabkeş” tvit yaymasını hansı əsaslarla isbatlaya bilər? Çünki onun özü də çox yaxşı bilir və dərk edir ki, qərəzli yanaşmasına qarşı çoxsaylı arqumentlərimiz mövcuddur. Belə olan halda istər təşkilatın, istər onları maliyyələşdirənlərin, istərsə də qahmar çıxdıqları separatçıların, silahlı quldurların ”humanitar fəlakət” barəsində danışmağa hər hansı hüquqları, mənəvi haqları varmı?

SİTAT: ”Ermənistan uzun illər 400 min əhalisi olan Naxçıvan Muxtar Respubikasını digər blokadalarla yanaşı, həm də qaz blokadasında saxlayıb. Minlərlə naxşıvanlı qazsız, elektriksiz vəziyyətdə blokadaya sinə gəriblər.

O cümlədən, digər istiqamətlərdə də işğal altındakı ərazilərimizdə ən vəhşi üsullarla humanitar fəlakətlər yaşadılıb. Misal üçün, 30 il Sərsəng su anbarını istifadə edən işğalçılar Azərbaycan əhalisinə qarşı su terrorunu həyata keçirib. Çaylarımızı müxtəlif kimyəvi məhlullarla zəhərləyib, partlayıcı vasitələri axar çaylarla axıdaraq, onlarla insanlarımızın, uşaqlarımızın həyatlarına qəsdlər törədib. Və ən əsası, Ermənistan bugünə qədər itkin sayılan 4000 azərbaycanlının taleləri haqqında heç bir məlumat vermir! ”Human Rights Watch”ın məsul təmsilçisi Qogiya bu barədə niyə bir kəlmə də olsun tvit paylaşmır?!”

Gülayə Səfərova sonda bildirib ki, artıq Ermənistanın Azərbaycana qarşı işlətdiyi cinayətkar əməlləri Beynəlxalq İnsan Haqları Məhkəməsində araşdırılır və çox yaxın vaxtlarda cinayətkarlar öz layiqli cəzalarını alacaqlar, habelə dəymiş mənəvi və s. ziyanların da ödənilməsi prosesi ən yüksək tələblərimizdən biridir: ”Maraqlıdır, ”Human Rights Watch” həmin vaxtda da çıxarılan qərarlara öz etirazını bildirməyə cürət tapacaqmı? Yaxşı olardı ki, cənab Qogiya günaşırı olaraq sifarişli tvitlər yazıb özünü ifşa edənə qədər bu suallara cavab axtarsın, əks halada, ”Human Rights Watch” yetkililəri daha çox ifşalara məruz qalmalı olacaqlar”.

***Rövşən RƏSULOV***

# “Prezident İlham Əliyevin idmana qayığısı gənclərimizə yeni stimullar bəxş edir”

“Prezidenti İlham Əliyev cənablarının bir neçə gün əvvəl gənc güləşçilərlə görüşü ilk növbədə, Azərbaycanda idmana və idmançılara göstərilən diqqət və qayğının bariz nümunəsidir”. Bu fikirləri SİA-ya YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov bildirib.

Onun sözlərinə görə, Avropa çempionatında komanda hesabında birinci yerə çıxaraq yüksək nəticələr əldə etmiş gənc güləşçiləri qəbul edən dövlətimizin başçısı ölkəmizdə idmanın uğurla inkişaf etdiyini, respublikamızda idman sahəsində həyata keçirilən dövlət siyasətinin idmançılarımızın yerli və beynəlxalq arenalarda qələbələri ilə yanaşı, dövlətimizin qüdrətini nümayiş etdiyini vurğuladı və bu amil özünü son illərdə



kifayət qədər təsdiq edib: ”Bu baxımdan, idmançılarımızın nailiyyətlərini yüksək qiymətləndirən, Azərbaycanda güləşin milli idman növü kimi xüsusi yerə malik olmasını, həm sovet, həm də müasir dövrdə adlı-sanlı güləşçilərimizin yüksək səviyyəli yarışlarda yer qazanaraq Avropa, dünya, Olimpiya çempionu adını qazanmalarını görüş iştirakçılarına xatırladan cənab İlham Əliyev bu ənənələrin gənc nəsil tərəfindən davam etdirilməsinin təqdirəlayiq olduğunu bildirdi”.

YAP Qəbələ rayon təşkilatının sədri onu da qeyd edib ki, Prezident İlham Əliyev Avropa çempionatının medalçıları olan gənc güləşçilər arasından yaxın gələcəkdə Avropa, dünya və Olimpiya çempionları çıxacağına əmin olduğunu vurğulamaqla onları növbəti zəfərlərə ruhlandırıb. Lakin dövlətimizin başçısı daha bir faktora da toxunaraq vurğulayıb ki, uğurlu idman zəfərlərimiz dövlətimizin qüdrətinin dünyada nümayiş etdirilməsi üçün ən gözəl vasitələrdən biridir. Belə ki, Azərbaycanda son illərdə keçirilən beynəlxalq səviyyəli mötəbər idman tədbirləri - I Avropa, IV İslam Həmrəyliyi oyunları, Formula 1 Qran-Prisi və digər tədbirlərin Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq idman ictimaiyyəti və federasiyalarının ölkəmizə münasibətinin təzahüründür: ”Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində əldə olunmuş inamlı Zəfərin idmançılarımızın mübarizə əzminə daha yüksək təsir göstərərək onların yeni-yeni qələbələrə imza atacaqlarına inandığını qeyd etdi. Çünki 30 illik işğala son qoyaraq məğlub edilmiş ölkədən qalib ölkəyə çevrilmiş Azərbaycanı, müzəffər Azərbaycan xalqını təmsil etmək hər bir idmançı üçün qürur yeridir”.

Abil Ağasəfov əlavə edib ki, bütövlükdə gənc idmançılarla dövlətimizin başçısının görüşü idmanın digər növləri ilə məşğul olan gənclər üçün də bir stimula, təkana, kütləvi axına çevriləcək: ”O cümlədən, Prezident İlham Əliyev cənablarının görüş zamanı səsləndirdiyi konseptual xarakterli fikirləri ümumi milli idman sahəsinin müasir dövrün tələbləri səviyyəsində yenidən təşkil etməsinə zəmin və imkan yaradacaq. Bu, həmçinin görüş zamanı səsləndirilən problemlərin həlli ilə bağlı, xüsusilə bədən tərbiyəsi və idman sahəsində mövcud qanunvericiliyi müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğunlaşdırmaq, idmanın kütləviləşdirilməsi, idman infrastuktunun daha da təkmilləşdirilməsi, seleksiya işinin düzgün atılması, idmançıların hüquqlarının müdafiə olunması kimi əhəmiyyətli və konkret addımlar atmalarına dəstək verəcək”.

YAP Qəbələ rayon təşkilatının sədri sonda bildirib ki, bütün bu reallıqlar bilavasitə Azərbaycanda idmanın inkişafına, tərəqqisinə və idmançıların həyat şəraitlərinin, sosial həyatlarının daha da yaxşılaşdırılmasına göstərilən dövlət dəstəyinin danılmaz sübutu, münbit gerçəkliyidir.

***Rövşən RƏSULOV***

# Niyə təhsil almayan insanlar cəmiyyətdə birmənalı qarşılanmır?

## ARAŞDIRMA

**Bir xalq üçün ən böyük sərvət təhsildir. Təhsilsiz cəmiyyət isə məhvə məhkumdur. Təhsil şəxsiyyətin və cəmiyyətin inkişafı üçün əvəzsiz əsasdır. Təhsil təkcə oxumaq və yazmaqdan ibarət deyil, bilikdən öz mənfəəti üçün istifadə etmək və şəxsi inkişafa töhfə verməkdir.**

Təhsilin məqsədi təkcə insanları savadlı etmək deyil. Təhsil həm də insanlara başqalarından asılı olmadan öz həyatlarını sərbəst şəkildə idarə etmək bacarığı verir.

Təhsil təkcə kitab biliklərinin praktiki öyrənilməsi deyil. Təhsil o demək deyil ki, məktəblərə və kolleclərə gedib hər gün imtahan verək. O həyatımıza dair lazımi məlumatları öyrənməyə yönəlib. Təhsil dünya görüşüdür. Günümüzdə kifayət qədər təhsilsiz, amma böyük dünyagörüşünə sahib olan insanlar var.

Robot da oxuya və yaza bilir, lakin insan məlumatdan ağıllı şəkildə istifadə edir. Təhsil yalnız özümüzdə istifadə etmək üçün deyil, həm də başqalarının həyatını yaxşılaşdırmaq üçün istifadə edilə bilər.

Məlumdur ki, bu gün cəmiyyətdə hörmət qazanmaq üçün savadlı olmaq lazımdır. Xoşbəxt və firavan həyat sürmək üçün oxumaq vacibdir və təhsil insanlara həyatda uğur qazanaraq böyük işlər görmək imkanı verir.

Bəs, gəlin görək niyə təhsil almayan insanlar cəmiyyətdə birmənalı qarşılanmır? Niyə əksər insanlar onlara baxır və onları əzir? SİA məsələ ilə bağlı araşdırma apararaq ekspertlərin fikirlərini öyrənib.

**Təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi:** "Təhsilli biriylə təhsil almayan şəxs münasibət qurduqda aralarında yaranan problemlər cəmiyyətdə təhsil almayan şəxslərə qarşı fərqli düşüncələrin ortaya çıxmasına səbəb olur. Doğrudur, hər bir vətəndaşın təhsil alması



ilə bağlı konstitusion hüququ var. Eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının (BMT) "Hər bir şəxs üçün təhsil!" devizi altında müəyyən işlər görülür. Bizim vətəndaşlarımız da bu prioritet amilləri nəzərə alaraq təhsilə daha çox can atmalıdır.

Təəssüf ki, ölkəmizdə daha çox qadınların təhsildən yayındığını müşahidə edirik. Ali təhsil müəssisələrinə sənəd verənlərin sayında da bunu görmək mümkündür. Halbuki ölkədə əhalinin 51%-i qadın, 49%-i isə kişidir. Amma oğlanların müraciət faizi qızlardan daha çoxdur. Respublikanın xüsusi bölgələrində təhsil almayan qızlara daha çox rast gəlinir.

Oğlanlarda da təhsilə həvəssizlik, məktəbi sadəcə şəhadətnamə ilə tərk etmə hadisələri müşahidə olunur. Bu kimi şəxslər müəyyən bir iş tapşırıldıqda düzgün yerinə yetirə bilmir. İstər dövlət müəssisələrində, istərsə də ailədaxili məsələlərdə təhsilli və təhsilsiz fərqini görürük. Bu baxımdan təhsil almayan şəxslərə qarşı münasibət o qədər də ürəkaçan deyil.



Çalışmalıyıq ki, hər bir vətəndaş təhsil alsın. Dövlət də təhsilin vacibliyini bildirmək üçün müvafiq olaraq addımlar atmalıdır".

**"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova:** "Təhsil cəmiyyətin, ümumiyyətlə bir toplumun, bir millətin həyat səviyyəsini, onun mövqeyini ölçən əsas amildir.

Təhsilin həyatımızda böyük rol oynadığını hamımız yaxşı bilirik. Təhsil vasitəsilə insanın aldığı biliklər onun cəmiyyətdə güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Təhsil cəmiyyətdə mədəni və düzgün tərbiyəli insanlar yetişdirir. Elmsiz, təhsilsiz bir insan yolunu



azmış kor bir səyyaha bənzəyir. Həyat və güzaranımızı daha mənalı etmək, səmərəli yaşamaq istəyiriksə daha çox təhsilə, savada yiyələnməliyik".

**Təhsil eksperti Kamran Əsədov:** "İlk növbədə qeyd edim ki, hal-hazırda Azərbaycanda ali təhsilli insanların sayı ümumi ölkə vətəndaşlarının 17 faizini təşkil edir. Azərbaycanda təhsil icbaridir, yəni məktəb yaşına çatmış hər kəs orta təhsil alır. Amma etiraf edək ki, orta təhsil o qədər də keyfiyyətli olmur.

Bugün biz əmək bazarında ictimai, insanlar arası münasibətlərdə, hətta ailə zəminində belə təhsilli insanlarla təhsilsiz insanların münasibətlərində fərqi görürük.

Ardı Səh. 12

# Niyə təhsil almayan insanlar cəmiyyətdə birmənalı qarşılanmır?

Əvvəli səh. 11

Bunun ən ciddi problemi odur ki, insanlar özünü ifadə etməklə bağlı çətinlik çəkirlər, eyni zamanda müəyyən qədər gigiyenik və etik davranış qaydalarına riayət etməklə bağlı problemlər yaşayırlar. Yəni, bu günləri insanların bir-birinə münasibətinə təbii ki, təhsil və təhsilin səviyyəsi, eyni zamanda təhsilin keyfiyyəti öz təsirini göstərir. Belə ki, hətta biz ölkədə yüksək təhsil alan insanla xarici təhsil alanlarla münasibəti müşahidə edəndə açıq şəkildə fərqləri görürük.

Düşünürəm ki, təhsilsiz insanlarda müəyyən qədər bilik və bacarıqlarının zəif olması, özünü ifadə etməkdə, gigiyenik qaydalara riayət etməkdə, insanlarla ünsiyyət qurmaqdakı etik davranış qaydalarının pozulmağını daha çox müşahidə edirik. Hətta biz bunu xidmət sektorunda da görürük. Mi-



sal üçün hansısa bir xidmət göstərən ali təhsilli və yaxud da təhsili olmayan şəxs arasında münasibətlərdə görürük ki, bu özünü açıq şəkildə göstərir. Təbii ki, cəmiyyət birmənalı şəkildə daha çox daha yüksək keyfiyyətli, intellektli insanları qəbul edir. Bu hətta işdə keyfiyyətdə, ailə zəminində də bunu göstərir. Hətta baş verən cinayətlərin təhlilində də biz görürük ki, təhsilli insanlar bu tipli məsələlərdə o qədər də pozuntuya yol vermirlər. Məhz bu amillərin hər biri cəmiyyətdə insanlar arası münasibətlərə öz təsirini göstərir. Təbii ki, orta təhsilin keyfiyyətli olmağı müəyyən qədər daha yaxşı olardı. Yəni, orta məktəb məzunlarının yalnız 45 faizə qədəri ali təhsil ala bilirlər. Bu kifayət qədər aşağı bir rəqəmdir. Ona görə mən düşünürəm ki, biz orta təhsilin də keyfiyyətinə nail olsaq birmənalı şəkildə insanlar arası münasibətlər, ailədaxili münasibətlər, eyni zamanda xidmət sektoru daha yaxşı olar".

SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib.

**Şəhər sakini Aysu Məmmədova:** "Məncə, bunun kökü hər şeydə olduğu kimi, yenə də ailədən gəlir. Ailədə "xalxın uşağı universitetə girdi sən qaldın", "xalxın uşağı səndən daha uğurludur" deyimləri bugünkü cəmiyyəti formalaşdırır. Bu deyimlər var olduqca cəmiyyət təhsil almayan insanlara heç cür birmənalı baxmayacaq.

Əslində, təhsilə qalsa, bugünkü təhsil sistemi bizə çox bir şey vəd etmir. Ali təhsilli olmayan elə insanlar tanıyıram ki, sözdə "təhsilli" insanlardan qat-qat daha bilikli və dünyagörüşlüdürlər. Cəmiyyət maariflənib əsl təhsil göstəricisinin kağız parçasında yox, düşüncədə olduğunu anlasa, bugünkü təhsil bizə nələrisə əzbərləməyi deyil, düşünməyi öyrədərdi".

**Şəhər sakini Röya Vahabova:** "Təbii ki, təhsil önəmlidir. Amma həm də bir seçimdir. Bu qida kimidir əslində. Təhsil dedikdə sadəcə universitet, məktəbi nəzərdə tutmaq olmaz. Həyat özü hər şərtdə bizə təhsil verir. Universitetdə oxumayan biri asudə vaxtında o qədər kitab oxuyur, o qədər maariflənir ki, heç o "diploma" ehtiyac duymur. Yəni, əsas məsələ təhsili qəlibləşdirməməkdir. Universitet, magistratura bunlar hamısı bir seçimdir. Bizə isə hər kəsin seçimlərinə hörmət etmək düşər".

**Şəhər sakini Ləman İdrisoy:** "Təhsilsiz insan bar verməyən meyvə ağacı kimi bir şeydir. Təhsil insanı müəyyən mənada inkişaf etdirir, geniş düşünməyə sövq edir. Ümumiyyətlə, istər insanın fərdi şəkildə inkişafı, istərsə də cəmiyyətin inkişafı təhsildən çox asılıdr. Çox əfsuslar olsun ki, günümüzdə də kifayət qədər təhsilsiz insanlar var. Belə insanlar hüquqlarını, qanunları bilmirlər ki, bu ilk növbədə insanın özünə lazımdır.

Bu gün bir sıra avropa ölkələrində böyük işlər görülür, ölkələr ciddi şəkildə inkişaf edir, bunların hamısı təhsil sayəsində baş verir. Mən düşünürəm ki, təhsil fərdin müəyyən cəmiyyətdə yerini tapması üçün önəmli faktorlardan biridir. Təhsil yoxdursa insan da yoxdur, dövlət də".

**Şəhər sakini Nərmin Qocamanova:** "Bunun təhsil almaq və ya almamaq məsələsi olduğunu zənn etmirəm. Dünyada yaxşı orta məktəb təhsili almayan, ali məktəbdə oxumamış, amma uğur qazanmış insanlar çoxdur. Bu insanlara heç kim birmənalı yanaşmır. Çünki, pul qazanmaq təhsil və s. kimi şeylərin önünə keçə bilir.

Ümumilikdə isə ali təhsilin deyil, orta məktəb təhsilinin çox önəmli olduğunu düşünürəm. Ali təhsil olmadan da böyük uğurlar qazanmaq mümkündür, amma orta məktəb təhsili olmayan şəxslərin uğur qazandığını nadir hallarda görə bilərik. İnsanın ailəsi, yaşadığı mühit, dünya görüşü kimi şeylər təhsildən daha çox rol oynaya bilər. Ali təhsil almaq savadlı olmaq, uğur qazanmaq demək deyil".

***Ayşən Vəli***

# Öldürmək üçün "türk, müsəlman" olmaq kifayət edirdi

**"1918-ci il martın 31-də törədilən soyqırımdan 104 il keçir. Bu hadisədən zaman baxımından uzaqlaşdıqca ona yenidən nəzər yetirmək və müvafiq ibrət dərsləri almaq ehtiyacı yaranır. Birinci Dünya müharibəsinin sonlarına yaxın, 1918-ci ilin mart ayında yaranmış mürəkkəb şəraitdə Azərbaycanın müxtəlif yerlərində erməni-daşnak və bolşevik, Bakı Sovetinin dəstələri birlikdə azərbaycanlı əhalini kütləvi qırğınlara, soyqırımına məruz qoydular". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Musa Qasımlı bildirib.**

Onun sözlərinə görə, Şərqi Anadoluda mülki türk, müsəlman əhaliyə qarşı törətdikləri qırğınlar üçün cəzasız qalmayacaqlarından qorxan erməni-daşnak dəstələri rus Qafqaz cəbhəsi dağıldıqdan sonra ordu hissələri ilə birlikdə Cənubi Qafqaza gəldilər. Bu zaman anarxiyanın hökm sürdüyü regionda müvəqqəti hökumətin orqanları, sovetlər və milli şuralar fəaliyyət göstərirdi: "Qafqaz cəbhəsindən qayıdaraq Bakıdan keçib Rusiyaya getməli olan rus əsgərləri yol boyu Azərbaycan kəndlərini talan edir, aclıq və səfalət içərisində olduqlarından Bakı Sovetinin xidmətində qalmağı vətənə dönməkdən üstün tuturdular. Ordu silah və sursatını ermənilərə və Bakı bolşeviklərinə vermişdi.

Kütləvi qırğınların, soyqırımlarının coğrafiyası geniş olub, əvvəlcə Şərqi Anadoluda törədilmişdi. 1917-ci ilin payızından etibarən isə Cənubi Azərbaycanı, Cənubi Qafqazda - tarixi Azərbaycan torpağı olan İrəvan quberniyasını-indiki Ermənistan Respublikasının, Tiflis quberniyasının Borçalı qəzasının və indiki Azərbaycan Respublikasının ərazilərini əhatə edirdi. Erməni silahlı qüvvələri tərəfindən dinc azərbaycanlı əhaliyə qarşı törədilən kütləvi qırğınların zirvə nöqtəsi 1918-ci ilin martında oldu. Martın 30-da axşamüstü S.Şaumyan başda olmaqla Bakı Soveti və erməni-daşnak dəstələri tərəfindən dinc türk və müsəlman əhaliyə qarşı soyqırımına başlandı. Martın 30-da axşam saat 5-də Bakıda ilk atəş açıldı. Qırğın başlananadək özlərinin bitərəfliyini elan etmiş Daşnaksütyun və erməni Milli Şurası, o cümlədən erməni kilsəsi Bakı Sovetini müdafiə etdi. Nəinki silahlı ermənilər, habelə erməni ziyalıları da Bakı Soveti tərəfindən döyüşə qatıldılar. S.Şaumyan bu hadisə ilə bağlı olaraq yazırdı ki, bizim süvari dəstəyə ilk silahlı hücum cəhdindən bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik. Bizim artıq 6 min nəfərə qədər silahlı qüvvəmiz var idi. Həmçinin Daşnaksütyunun 3-4 minə qədər milli hissələri var idi. Onlar da bizim sərəncamımızda idi.

Daşnaksütyunun iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi və bundan yayınmaq mümkün deyildi. Biz buna şüurlu olaraq getdik, çünki əgər onlar Bakıda qələbə qazansaydılar, şəhər Azərbaycanın paytaxtı elan ediləcəkdi. Soyqırım xüsusi qəddarlıqla həyata keçirildi. Şəhər yerdən və havadan bombardman edildi. Dinc azərbaycanlı əhali diri-diri su və neft quyularına, yanar təndirlərə atılır, hamilə qadınların qarınları süngü ilə deşilir, körpə uşaqlar divarlara mıxlanır, qadınlar hörükləri ilə bir-birinə bağlanaraq küçələrdə çılpaq gəzdirilirdi. Silahlı dəstələr uşaqlara, qocalara və qadınlara rəhm etmirdilər. Adamlardan siyasi mənsubiyyət soruşulmurdu. Öldürmək üçün "türk, müsəlman" olmaq kifayət edirdi. Mart soyqırımının şahidi olan Azərbaycan tarixçisi R.İsmayılov yazırdı: "İş o yerə çatmışdı ki, daşnaklar "biz, bolşevik, sosialist bilmərik, müsəlmansan, kifayətdir", - deyə hətta müsəlman sosialistlərini belə qırdılar...".




Soyqırımın gedişində azərbaycanlılara məxsus ictimai binalar, milli rəmzlər və mədəniyyət ocaqları dağıdıldı. "Açıq söz", "Kaspi" qəzetlərinin redaksiyaları, fəaliyyətini bütün Cənubi Qafqaza yayan və müharibə zamanı Qafqaz cəbhəsində hərbi əməliyyatlar meydanında böyük iş aparan, azərbaycanlıların ictimai hərəkatında mühüm rol oynayan Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi "İsmailiyyə" binası yandırıldı. Təzəpir məscidinin minarələri zədə aldı.

Qüvvələr bərabər olmadığı üçün martın 31-də azərbaycanlılar döyüşü dayandırmağa məcbur oldular. Buna baxmayaraq, azərbaycanlıların öldürülməsi davam etdirildi. Qırğınlar yalnız aprelin 2-də dayandırıldı.

***Banuçiçək Hüseynli***

# Novruz təəssüratları

*FELYETON*



Builki Novruz təəssüratlarım çox zəngin və maraqlı olduğu üçün qələmi götürüb bunu sizinlə də bölüşmək istədim. Bu təəssüratları oxuyandan sonra yenə mənə gülənlər, yuxarıdan aşağı baxanlar, sözsüz məni ”müasirlikdən geri qalan” hesab edənlər də olacaq, eyib etməz, mən razıyam, həm də ki, heç incimərəm. Çünki səbəblərim var. Bu internet deyilən mərəz nə qədər ki, canımızdan çıxmaq bilmir, təəssüratlarımız həmişə ”zəngin” olacaq. Mərəz də deyirəm, məni qınamağa bəlkə də çox haqları olacaq çoxlarının. Ay qardaş, ay bacı nə edib ki, bu internet insanlara? İşlərini yüngülləşdirib də. Gündə qalırdıq bir-birimizin qapısında. Nədi-nədi ki, qohumuq, tanışıq, bir-birimizə gəlməli-getməli, kef-əhval tutmalıyıq. İnternet nə elədi? İnsanları bir-birindən uzaqlaşdırdı, qapıları bağladı, qonaqpərvərlərin ürəyinə dağ çəkdi, qonaq istəməyənlərin ürəyinə isə su çilədi. Telefon var da, otur evində, aç görüntülü danış nə qədər istəyirsən. Gərək durub gedib kiminsə evində saatlarla oturub camaatı narahat edəsən? Elə lap doğmaların olsun, durub Bakıdan nə bilim axı, Şəkiyə, Balakənə, Lənkərana gedincə, aç danış da telefonla, əhvallarını da soruş, bayramlarını, nə bilim, doğum günlərini də təbrik et, qurtarsın getsin. Pulun da qalsın çibində.

Mətləbdən həmişə olduğu kimi uzaqlaşmağın fərqində olmadığımı düşünməyin. Xahiş edirəm, məni anlayasınız ki, dərdli deyingən, danışqan olar. Keçim mətləbə. Qoca nənələr demişkən, iki dünya bir olsaydı da inanmazdım ki, vaxt gələcək, internetin qapılarını taybatay açıb Novruzu da oraya dəvət edəcəyik. Ancaq ”Sən saydığını say, gör, fələk nə sayır” da deyiblər axı. Bəli, belə oldu ki, Novruz da onlaynlaşdı. Hələ Novruzaqədərki çərşənbələrin hər birində hərəmiz bir video düzəldib sosial şəbəkələrdə paylaşdıq. Su şəklinin üzərinə ”Su çərşənbəniz mübarək!”, od şəklinin üzərinə ”Od çərşənbəniz mübarək!”, Külək şəklinin üzərinə ”Yel çərşənbəniz mübarək!”, torpaq şəklinin üzərinə ”Torpaq çərşənbəniz mübarək!” yazıb paylaşdıq, bir-birimizlə onlayn bayramlaşdıq və işimizi də bitmiş hesab etdik. Novruz yetişdi, yenə kimin əlinə nə keçdisə, paylaşdı, bayramlaşdı. Novruz bayramımızı da beləcə mübarək etdik. Onlayın papaqatdı mərasimi də keçirdik, yumurta da döyüşdürdük, tonqal yandırdıq, amma onu deyə bilmərəm ki, oduna isindik, ya tüstüsünə kor olduq.

Bəziləri üçün gülməli olsa da, bu Novruzda bayramboyu təəssüratlarımla illər öncələrin Novruz təəssüratları məni rahat buraxmadı. Hər çərşənbədə yandırılan ocaqları xatırladım. Su çərşənbəsində sübh çağı çayda, çeşmədə su üstündən tullanılmasını, bütün ağırlığın, xəstəliklərin suya axıdılmasını, evə həmin sudan gətirilməsini, bərəkət rəmzi olaraq küncə-bucağa, həyət-bacaya səpilməsini xatırladım. Yel, Torpaq çərşənbələrində bağ-bağçada torpaq işlərinə başlanılmasını, ötən yazdan-payızdan qarın altında qalan çör-çöpün, ot-alafin bir yerə toplanılıb yandırılmasını, külün bolluq rəmzi kimi bütün bağçaya səpilməsini xatırladım. Od çərşənbəsində ən böyük tonqalların qurulmasını, bütün ailə üzvlərinin, qohum-qonşuların ocaq başına yığışmasını, deyib gülməsini, bayramlaşmasını, tonqal üzərindən tullanıb ”ağırlığım, uğurluğum odlara” deməsini xatırladım. İlaxır çərşənbə və Novruz bayramı gecələrində papaqatma mərasimlərini, bayramın səhəri günü yumurta döyüşdürməni xatırladım. O yumurtalar ki, Novruzdan Novruza yığılıb saxlanılan soğan qabıqlarında qaynadılıb qırmızı rəngə boyadılardı. Evlərdəki köhnə palpaltarın yumru şəkildə üst-üstə sarınıb metal simlə möhkəm bağlanaraq bir ay əvvəldən neftə salınmasını, bayram günü yeniyetmə və gənclərin əllərində fırlatmalarını xatırladım. Günlərlə bütün qohum-qonşulara bayram görüşünə gedilməsini, insanların hər gün bir evdə yığışmasını yadıma saldım. Bu xatırlamalarıma sonadək böyük Şəhriyarın ”Heydərbabaya salam” poemasından aşağıdakı misralar da yoldaşlıq edirdi:

**Bayram idi gecəquşu oxurdu,**
**Adaxlı qız bəy corabın toxurdu,**
**Hər kəs şalın bir bacadan soxurdu,**
**Ay nə gözəl qaydadı şal sallamaq,**
**Bəy şalına bayramlığın bağlamaq.**

Novruz təəssüratlarının illər əvvəlki müqayisəsindən isə sən demə mənə qalan sadəcə poemanın bu bəndi imiş:

**Heydərbaba, Mirzəməmmədin bağçası,**
**Bağçaların turşaşirin alçası,**
**Gəlinlərin düzmələri, taxçası,**
**Hey düzülər gözlərimin rəfində,**
**Xeymə vurar xatirələr səfində...**
**Yəqin ki, aydındır.**

***Mətanət Məmmədova***



Ağasəf Babayev

# Niyə sənət adamları Rusiyadan gedirlər?

**Maraqlıdır, görən, Rusiyada təkcə imkanlı şəxslərin deyil, həm də sənət adamları-aktyor və aktrisaların, rəssamların ölkədən qaçmasının səbəbi nədir!? O da maraqlıdır ki, bəziləri bunu bugünkü Rusiyada baş qaldıran anarxizmlə əlaqələndirirlər. Doğrudur, bu Rusiyadanqaçış hələ ki, total şəkil almasa da, amma etiraf edilməlidir ki, artmaqda davam edir.**

Qeyd edək ki, bu gün Rusiyadan gedənlərlə bağlı ruslar arasında aparılan sorğuya verilən cavablar birmənalı deyil. Məsələn, bəzi ruslar gedənlərə ”satqın” deyərək iradlarını gizlətmirlər. Rusiyada olarkən az-çox tanınan bəzi sənət adamlarının heç birinin sonradan Qərbdə məşhur olmadıqlarını deyib, nümunələr də göstərirlər.

Amma, deyim ki, rəyi soruşulanlardan bəziləri bəlkə bir şeydə haqlıdırlar. Məsələn, onlar haqlı olaraq, Rusiyadan gedənlərin vaxtilə ölkədə olarkən axmaq (yaltaq) açıqlamalar verməkdiklərini, əksəriyyətinin bizneslə məşğul olub Qərb hakimiyyətinə sadiqliklərini nümayiş etdirməyə ehtiyac duymadıqlarını deyirlər.

Təbii ki, sonradan rus xalqı da ”heç bir göstəriş olmadan” onlara olan marağı itirir və unudub gedirlər.

Yeri gəlmişkən, deyim ki, mən də əvvəllər belə düşünürdüm. Amma aktyor Saveliy Kramarovun yaşantıları ilə tanışlıqdan sonra, belə görünür ki, bəzi gedənlərə haqq qazandırmaq olar. Deyim ki, milliyyətcə yəhudi olan Kramarovun sonradan Rusiyanı tərk etməsinin səbəbi İsraildə yaşayan əmisi ilə telefon əlaqəsi saxlaması oldu. Qeyd edək ki, Kramarov bu ”əməl”inə görə, nələrlə üzləşmədi, onu, elə bir istedadı daha film çəkilişlərinə çağırmadılar və hətta deyilənə görə, o zaman aktyorla çəkilən bütün filmlərin kassadan geri çəkilməsinə göstəriş verilibmiş. Hətta onun ölkədən çıxışına da yasaq qoymuşdular. Amma fəlsəfənin bir mülahizəsində olduğu kimi, təsadüf zərurəti doğurdu. Belə ki, ”Amerikanın Səsi” radiosunda oxunan bir məktub Amerika prezidenti Ronald Reyqana göndərildi və o da Kramarovun Amerikaya getməsinə yardımçı oldu.

...Və yaxud Leonid Yarmolniki götürək. Rusiyanın ən istedadlı aktyorlarından biri...1994-cü ildə Rusiyanın əməkdar, 10 il sonra isə 50 illik yubileyi ilə əlaqədar aralıq rütbəsi olmadan verilməsi planlaşdırılan xalq artisti adından imtina etdi. Niyə, məsələ bundadır ki, o da Rusiyanı tərk edib deyə, verəcəyi cavabı da özü ilə apardı. Təbii ki, belə nümunələr çoxdur, amma...

...Deyim ki, bu gün Rusiyanı tərk edib xaricə gedənlər daha çox Ukrayna-Rusiya müharibəsini önə çəkib bunun onlar üçün ”utandırıcı və ağrılı” olduğunu əsas gətirirlər.

Amma, sən demə, Çulpan Xamatova kimi pulsuzluq və ehtiyacdan da Rusiyanı tərk edən ”məşhurlar” varmış. Onu da deyim ki, tatar əsilli Xamatova gərək ki, ötən il idi... ermənilərin ”türklərdən gördükləri zülmlə” bağlı çəkdikləri bir filmdə baş rola dəvət almışdı. Amma sonrası nə oldu, deyə bilmərəm...

# Fizioterapiyanın ziyanı varmı?

*FİZİOTERAPEVT DANIŞDI*

**“Fizioterapiya tibbin müxtəlif sahələrində istifadə olunan fiziki metodlarla müalicə üsuludur”. Bu sözləri SİA-ya açıqlamasında Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin Fizioterapiya bölməsinin rəisi, tibb xidməti mayoru Şəhla Qafarova bildirib.**

Onun sözlərinə görə, fizioterapiya dayaq hərəkət sistemi xəstəliklərində, onurğa xəstəliklərində, skoliozda, kifozda, onurğarası disk yırtıqlarında, çıxıqlar, sınıqlardan sonrakı reabilitasiya dövründə, əzələ dartınmalarında və s. istifadə olunur:

”Fizioterapiya nevrologiyada, travmatologiyada daha intensiv, otolaringologiyada, stomatologiyada, həmçinin urologiyada və ginekologiyada isə fərdi, seçici qaydada tətbiq edilir .

Fizioterapiyanin istifadəsinə əks göstərişlər aşağıdakılardır:

*Epilepsiya,
* Qan və limfa xəstəlikləri,
* Ürək çatışmazlığı,
*Elektrokardiostimulyator tətbiq olunmuş pasientlər,
*Aktiv tuberkulyoz
*Onkoloji xəstəliklər

Xoşxassəli və bədxassəli şişlər.





Bəzi hallarda fizioterapevtik prosedurların müxtəlif növlərini seçici olaraq tətbiq etmək mümkündür. Məsələn onkoloji xəstələrdə belə, bəzən müəyyən fazada ağrıkəsici elektrik axınlarından istifadə etmək olar.

Müasir günümüzdə elə xəstəliklər var ki, fizioterapevtik müalicə xəstəni həqiqətən də cərrahi müdaxilədən xilas edir. Lakin həkim xəstəyə fərdi yanaşmalı, xəstəliyin ağırlıq dərəcəsinə əsasən düzgün müalicə metodları təyin etməli, dozalanmanı düzgün aparmalı, xəstənin fiziki və psixi xüsusiyyətlərinə diqqət yetirməlidir. Fizioterapevtik prosedurlar fizioterapevtin göstərişi ilə təyin olunmalıdır. Hər kəsə sağlamlığının qayğısına qalmağı, sağlam olmağı arzulayıram”.

***Səbinə Hüseynli***

TƏRS BAXIŞ+ÖZƏL

# Qarabağ reallığı - Fərrux və Daşbaşıdan sonra istiqamət Xankəndiyədir

## Azərbaycan Silahlı Qüvvələri öz sözünü deməliydi və deməyə başlayıb da!

Beləliklə, Azərbaycanın şanlı Silahlı Qüvvələri artıq uzun müddətdir ki, hələ də Qarabağ regionunun məlum ərazilərində təxribatçılıqlarla məşğul olan separatçılara öz yerlərini, daha dəqiq desək, haraya getməli olduqlarını əməli qaydada nümayiş etdirdi. Yaxud, 1 ildən artıqdır ki, etdiyi çoxsaylı xəbərdarlıqlarına rəğmən, qarşı tərəfdən göstərilən etinasızlıqlardan sonra üzərinə düşən növbəti vəzifəsini icra etdi - mühüm strateji əhəmiyyətə malik olan Fərrux məntəqəsini və Daşbaşı yüksəkliklərini işğaldan azad etdi.



Lakin bu proseslər çərçivəsində bizləri uzun müddətdir ki, düşündürən və zaman-zaman hiddətləndirən bir sıra məsələlər də özünü açıq şəkildə nümayiş etdirdi - Rusiyanın Azərbaycanın Qarabağ regionunda müvəqqəti yerləşdirilmiş sülhməramlı kontingentinin (RSK) 10 noyabr 2020-ci ildə qəbul olunmuş üçtərəfli bəyanatdakı 4-cü bəndin realizəsini və üzərinə götürdüyü öhdəliyini yerinə yetirməməsi, ya da yerinə yetirmək istəməməsi, habelə, Ermənistanın bu fürsətdən maksimum şəkildə yararlanmaq cəhdləri.



Bütün bunlar regionda sülhün yaranmasına, əldə olunmasına qarşı kifayət qədər baryerlər qoymaqdadır

Yəni bu günün özündə də fakt budur ki, Ermənistan hazırda da bəyanatdakı bəndlərin icrası ilə bağlı hər hansı bir fəallıq nümayiş etdirmir, üstəlik Azərbvayacana qarşı müxtəlif üsullarla ərazi iddialarını qüvvədə saxlamağa çalışır. Əgər bu gün Qarabağda istər separatçılar olsun, istər qanunsuz silahllı formalaşmalar olsun, istərsə də İrəvandan Laçın dəhlizi vasitəsi ilə ermənilərin Xankəndinə səfərləri olsun, bütün bunlar regionda sülhün yaranmasına, əldə olunmasına qarşı kifayət qədər baryerlər qoymaqdadır. Məhz belə olan bir vəziyyətdə səbri get-gedə tükənməyə başlayan Azərbaycan Silahlı Qüvvələri öz szünü deməliydi və deməyə başlayıb da!



Başqa tərəfdən, ötən ay Azərbaycanla müttəfiqlik bəyannaməsi imzalayan Rusiyanın sözügedən sənəddəki mürəkkəblər qurumamış heç də xoş olmayan addımlara getməsi əlbəttə ki, təəssüf, eləcə də hiddət doğurmaya bilməzdi. Çünki bildiyimiz kimi, diplomatiya aləmində imzaya hörmətsizlik heç də yaxşı qəbul olunmayan bir məsələdir və yumşaq ifadə etsək, etimadın, etibarın pozulması faktı onu itirən tərəfi siyasi cəhətdən rüsvay edir. Biz bu reallığı son hadisələr çərçivəsində Rusiyanın Müdafiə Nazirliyinin "simasında" müşahidə etdik, özü də iki dəfə! Və bundan sonra da rus hərbi idarəsinin bizə qarşı eyni münasibətlərini nümayiş etdirməyəcəyinə kimsə zəmanət verə bilməz

O cümlədən, Azərbaycanın Müdafiə Nazirliyi Rusiya Federasiyasının Müdafiə Nazirliyinin relizinə qarşı müvafiq, sərt və əslində gözlənildiyindən də artıq açıqlama verməklə

Azərbaycan Ordusu get-gedə yenidən baş qaldırmağa başlayan erməni separatçılarının dərsini verdiyi və belə desək, RSK-nın görməli olduğu işi gördükdən sonra Rusiya Müdafiə Nazirliyinin əks mövqedə dayanması bir çox suallar doğurmağa başladı. Azərbaycanın Müdafiə Nazirliyinin iki dəfə (!) təqdim etdiyi rəsmi açşıqlamasına rəğmən ictimailəşdirdiyi bülletenlərində Qarabağ regionunu "Dağlıq Qarabağ", Fərrux toponimimizi "Furux" adlandırması da məhz bu faktı ehtiva etməkdədir.

O cümlədən, Azərbaycanın Müdafiə Nazirliyi Rusiya Federasiyasının Müdafiə Nazirliyinin relizinə qarşı müvafiq, sərt və əslində gözlənildiyindən də artıq açıqlama verməklə Moskvanın Bakı ilə müttəfiqlik bəyannaməsi imzaladığını xatırlatdı.

Digər tərəfdən, Rusiya tərəfi onu da bilməlidir ki, Azərbaycanın Silahlı Qüvvələri heç yerə geri çəkilməyəcək və təhrifedici bəyanatları ilə də ruslar heç nəyə nail ola bilməyəcəklər. Və əgər Azərbaycan Silahlı Qüvvələri qarşılarına qoyduqları məqsədlərini, aldıqları əmr və tapşırıqları icra etməli olacaqlarsa bunu edəcəklər və buna da kimsənin şübhəsi yoxdur. Misal üçün, əgər Ordumuz RSK-nın dayandıqları mövqelərin ətrafından keçməklə qanunsuz erməni silahlılarına, onların hərbi infrastrukturlarına, istehkam və səngərlərinə nöqtə zərbələri endirəcəklərsə, bundan təəccüb etməməlidirlər. Qarabağ Azərbaycanın suveren ərazisidir və Silahlı Qüvvələrimizin öz ərazilərimizdə haraya nə vaxt, necə gedəcəyinə də kimsə müdaxilə edə bilməz!

Rusiya Azərbaycanın digər müttəfiqi-Türkiyə faktorunu da unutmamalıdır

Təbii ki, ərazilərimizin qanunsuz erməni silahlılarından təmizlənməsi, delimitarizasiya prosesi vacibdir və istər RSK ilə, istərsə də RSK-sız bu məqsəd həyata keçiriləcək. Söz yox ki, bunu Rusiyada da yaxşı bilirlər və bu, onlar üçün yeni xəbər deyil. Sadəcə, bu gün Rusiyanın Müdafiə Nazirliyinin, eləcə də Xarici İşlər Nazirliyinin primitive siyasi məşğulluğu real, onların dolğun siyasi baxış prizmalarından çıxış etməmələrini də sərgiləməkdədir. Daha dəqiq desək, Rusiyanın "Bizans siyasəti" tipində "nə bizə, nə sizə" siyasəti artıq dəyişən qlobal siyasi mühitdə keçərsiz olduğunu sübuta yetirir.

Təbii ki, Rusiya Azərbaycanın digər müttəfiqi-Türkiyə faktorunu da unutmamalıdır. Əgər bu gün Bakı ilə Moskva arasında hələ ki, həfif, nazik müttəfiqlik telləri mövcuddurda, ondan fərqli olaraq Bakı ilə Ankara arasındakı müttəfiqlik sarsılmaz, möhkəm bağlara malikdir. Həmçinin, Şuşa bəyannaməsi kontekstindən çıxış etsək Rusiya Türkiyənin istər diplomatik səviyyədə, istərsə də mümkün hərbi dəstək planında Azərbaycanın yanında olduğunu çox gözəl bilir, anlayır. Bütün bu reallıqlardan nəticə çıxarmalı olan Rusiya onsuz da beynəlxalq aləmdə sürətlə itirdiyi nüfuzunu daha dərin və çıxılmaz dalana dirəməmək üçün həqiqətlə barışmağa məhkumdur. Moskva ona qarşı tətbiq edilən çoxsaylı, ağır sanksiyalara nə Ankaranın, nə də Bakının qoşulmadığını qiymətləndirməli, bu jestləri dəyərləndirmək üçün özündə siyasi iradə və güc tapmalıdır.

***Rövşən RƏSULOV***

***P.S. Xankəndiyə və ətrafına verilən qaz məsələsinə gəlincə isə Paşinyanın Moskvaya gözlənilən səfərindən də çox şey asılıdır. El dili ilə desək, ya elə, ya da belə. Qaz kəməri çox köhnədir və boru vasitəsi ilə sınaq qazı verilərlən həmin boru dözməyib partlaya bilər. Təmir üçün isə aylar lazımdır...***



Elçin Bayramlı

# Rayonla şəhərin fərqi

**Son vaxtlar bəzi deputatlar tərəfindən ortalığa yeni bir ideya atılıb. Rayon məfhumu, ümumiyyətlə inzibati bölgü dəyişdirilsin deyə. Bu təkliflərin mahiyyətində nə dayandığı haqda mətbuatda müxtəlif fikirlər səsləndirilir.**

Nə bilim vallah, biri deyir, bu rayonları iri qəzalarda birləşdirib daha rahat idarə etmək üçündür, digəri deyir, bununla dövlət xərclərini azaltmaq olar, o biri deyir ki, burda nəsə psixoloji məqamlar var. Adam bilmir kimə inansın

Ümumiyyətlə, son vaxtlar insanların illərlə öyrəşdiyi məkanları, avtobus nömrələrini, yer adlarını dəyişdirmək prosesi gedir. Bunu əldə bayraq edən bəzi ağzıgöyçəklər orda-burda danışırlar ki, bəs bu proses zombiləşməyə aparır, insanların xatirələrinin, yaddaşlarının silinməsinə gətirib çıxarır.

İnamını yandıra bilmərəm, Avropa psixoloqlarının hansınınsa bununla bağlı əsərini oxumuşdum. Orda adam sübut edirdi ki, insanların gördüyü şeylərin tez-tez dəyişməsi onların yaddaşının silinməsinə səbəb olur. Hətta, faşist konslagerlərində həyata keçirilmiş belə bir eksperimentdən nümunə də gətirmisdi.

Şəxsən mən belə cızmaqaralara inanmaram, nə olsun avropalı yazıb, bəyəm Avropada hamı ağıllıdır? Amma, bu avropalılar yaman mövhumatçıdırlar, parapsixoloji cəfəngiyyatlara inanırlar. Görmürsünüz, tarixi binaları, abidələri necə qoruyurlar? Radikal konservatorlardır, bunlarda bircə damçı kreativlik, novatorluq deyilən qabiliyyət yoxdur.

Nədən danışıqdıq, hara gəlib çıxdıq. Həə, əslində mənim hüzurunuzda ərz eləmək istədiyim məsələ bir az ayrıdır. Bu da, alimli, jurnalistli, müəllimli bütün xalqımızın inzibati-coğrafi ərazi bölgüləri haqda yanlış fikirdə olmasından ibarətdir.

Məsələn, bizim ölkədə şəhər deyiləndə ancaq Bakı nəzərdə tutulur. Tutaq ki, biri ölkənin başqa bir şəhərindən- məsələn, Mingəçevirdən Bakıya gələn adamdan soruşurlar ki, "kənddə nə var, nə yox?" və ya "irayonda vəziyyət necədir?". Halbuki, Mingəçevir nə rayon deyil, nə də kənd, 120 minə yaxın əhalisi olan şəhərdir.

Yaxud bölgələrdən (lap elə Sumqayıtdan) Bakıya gedəndə "şəhərə gedirəm" deyirlər. "Hansı şəhərə"- deyə soruşsan sənə "dəvə nalbəndə baxan kimi" baxacaqlar. Çoxları "paytaxt" sözü ilə "şəhər" sözünü sinonim kimi anlayır.

Qəbul olunmuş normalara görə, əhalisinin yarıdan çoxu qeyri-aqrar sektorda çalışan, müasir infrastruktura mailk olan yaşayış məntəqələri şəhər statusu ala bilər. Şəhərin öz göstəriciləri var- bunun böyük və ya kiçikliyi, paytaxt və ya region şəhəri olması əhəmiyyət kəsb etmir. Məsələn, Danimarkada əhalisi 2000 nəfəri ötən bütün yaşayış məntəqələri şəhər statusu daşıyır.

Rayon anlayışı isə, inzibati ərazi vahidi olaraq özündə çoxsaylı yaşayış məntəqələrini (şəhərlər, qəsəbələr, kəndlər) və coğrafi məkanları (dağlar, çaylar, göllər, düzlər və s.) birləşdirən məhfumdur. Adətən rayonun inzibati mərkəzi şəhər olur. Elə rayonlar var ki, orada 2 şəhər var- (məs. Lənkəran, Tovuz, Xaçmaz, Cəlilabad və s.).

Amma iri şəhərlərin özləri də (Bakı və Gəncə) rayonlara bölünür. Bu o deməkldir ki, Bakıda yaşayan hər kəs eyni zamanda rayon sakinidir.

Şəxsən mənə çox maraqlıdır, niyə 75 şəhəri olan ölkədə "şəhər" deyiləndə yalnız Bakı nəzərdə tutulur? Niyə digər böyük şəhərlərə (məs. Gəncə, Mingəçevir, Şirvan və s) rayon deyilir?

Bir çox hallarda bu cür ifadələri ziyalılar, deputatlar, nazirlər belə işlədir. Dövlət orqanlarının saytlarında, mediada belə bu cür gülünc səhvlər verilir. Televiziyalarda və rəsmi mətbuatda belə rayonla şəhərin fərqini anlamırlarsa, o zaman savadsız insanlardan nə gözləmək olar?

# Vladimir Sajin:
## “Bakı və Tehranın yaxınlaşması regionun iqtisadi potensialını və təhlükəsizliyini gücləndirəcək”

**Azərbaycan və İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Bakıda keçirilən 15-ci iclası çərçivəsində iki ölkə hökumətləri arasında ikitərəfli əməkdaşlıq haqqında Memorandumun imzalanması regionda yeni iqtisadi və nəqliyyat platformasının yaranmasını təmin edə bilər.**



Belə ki, İran ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya əlaqələrinin yaradılmasına dair anlaşma bu cəhətdən xüsusilə əhəmiyyətlidir.

İran üzrə tanınmış rusiyalı ekspert, Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, professor Vladimir Sajin bu məsələni "Caliber" analitik mərkəzinə şərh edərkən Memorandumu Bakı və Tehran münasibətlərində əlamətdar hadisə adlandırıb.

Rusiyalı ekspertin fikrincə, belə əhəmiyyətli memorandumun imzalanması tərəflərin sıx iqtisadi əməkdaşlığa yönəlmiş yeni, daha sərfəli gündəliyin zəruriliyi barədə anlaşdığını göstərir.

"Aydındır ki, İran-Azərbaycan münasibətlərinin səviyyəsi xeyli yaxşılaşıb. İki ölkə arasında sərhəddə müəyyən gərginlikdən sonra Tehran və Bakı normal diplomatik, siyasi və iqtisadi münasibətlərə qayıdıb və bu, artıq müsbət bir nailiyyətdir və onu alqışlamaq lazımdır. Eyni zamanda, nəqliyyat kommunikasiyalarının yaradılması təkcə Bakı və Tehran üçün deyil, ümumilikdə bütün Qafqaz regionunun inkişafı, onun təhlükəsizliyinin qorunması üçün faydalıdır.

Eyni zamanda, Azərbaycan-İran sazişi Zəngəzur dəhlizinin əhəmiyyətini minimuma endirdi, baxmayaraq ki, İkinci Qarabağ müharibəsindən sonra imzalanmış üçtərəfli 2020-ci ilin noyabr müqavilələrinə əsasən, Zəngəzur nəqliyyat dəhlizi də daxil olmaqla, nəqliyyat kommunikasiyalarının açılması nəzərdə tutulurdu", - deyə professor bildirib.

Sajin qeyd edib ki, Bakı və Tehran memorandumu regionda nəqliyyat kommunikasiyalarının açılması üçün əvvəllər planlaşdırılan sxemi dəyişib.

Daha sonra rusiyalı ekspert Tehranın regional gündəliyi kontekstində ABŞ-ın sanksiyaları ilə bağlı İranın xarici siyasətinin əsas problemlərini, həmçinin Vyana danışıqlarında irəli sürülən şərtləri nəzərə alaraq nüvə sazişinə qayıtmağın mümkün variantlarını dilə gətirib.

"İranın nüvə sazişinin bərpası və reanimasiyası üzrə 11 aydır davam edən Vyana danışıqları əslində 2 əsas oyunçu- İran və ABŞ arasında aparılır. Mənə elə gəlir ki, nüvə sazişinin bərpa edilib-edilməyəcəyi yalnız bu iki ölkənin mövqeyindən asılıdır. Danışıqlar prosesinin əvvəlində bu məsələdə çoxlu ziddiyyətlər var idi, çünki Tehranın sazişə qayıtması məsələsində İran və ABŞ-ın mövqeləri çox fərqli idi. Lakin ABŞ sazişin tələblərinə əməl etməkdən imtina etdikdən sonra İran nüvə potensialını ciddi şəkildə artırdı.

2015-ci ildən əvvəl nüvə mütəxəssisləri İranın nüvə potensialını inkişaf etdirməsi üçün bir neçə il lazım olacağını deyirdilərsə, indi buna aylar lazımdır. Bu məsələdə aydın irəliləyiş var. İran uranı yalnız 3,67 faiz zənginləşdirə bilər və 300 kq-dan çox az zənginləşdirilmiş urana malik ola bilər. Bundan əlavə, İran zənginləşdirmə aparan müasir, səmərəli sentrifuqalardan istifadə edə bilmədi. İrana yalnız 1-ci nəsil IR-1 sentrifuqalarından istifadə etməyə icazə verilib, lakin 2019-cu ildən bəri nüvə sahəsində kəskin irəliləyiş var və indiyə qədər İran artıq uranı 20 və hətta 60 faizədək zənginləşdirməyə qadirdir.

Eyni zamanda, xatırlatmaq istəyirəm ki, nüvə silahının yaradılması üçün uranın zənginləşdirilməsi səviyyəsi 90 faizə qədərdir. Gördüyünüz kimi, İranda 20 və 60 faiz zənginləşdirilmiş uranın kifayət qədər böyük həcmdə yığıldığını nəzərə alsaq, 60 faizdən 90 faizə qədər texnoloji addım tamamilə əhəmiyyətsizdir. Tehran artıq ən son sentrifuqaları zənginləşdirmə prosesinə qoşub ki, bu da onun səmərəliliyini artırır və bu, Vyana danışıqlarında iştirak edənləri ciddi narahat edir.

İran ABŞ-dan bütün sanksiyaları ləğv etməyi tələb edib ki, tədricən sazişə qayıda bilsin. Amerikalıları İran tərəfinin tələbi qane etmədi, bunun müqabilində onlar İranın eyni vaxtda sazişə qayıtmasını təklif etdilər, bu razılaşmaya görə ABŞ sanksiyaların bir hissəsini ləğv edir, iranlılar isə uranın 60 faizə qədər zənginləşdirilməsini dayandırır. Beləliklə, addım-addım həm ABŞ, həm də İran sazişə qayıdırlar. Bir dövrdə proses yavaşladı, lakin son vaxtlar nəzərəçarpacaq dərəcədə intensivləşib. Beləliklə, son həftələrdə İran və ABŞ JCPOA-ya qayıtmaq üçün mövqelərində əhəmiyyətli dərəcədə yaxınlaşıblar. Artıq kiçik düzəlişlərə ehtiyacı olan bir sənəd layihəsi var. Birincisi, ölkədəki ağır iqtisadi vəziyyətə görə, ikincisi, idarəetmə sistemində və iqtisadiyyatda islahatlara başlamaq üçün Tehranın ABŞ sanksiyalarından qurtulması çox vacibdir.

Digər tərəfdən, bildiyiniz kimi, dünya geosiyasətində cərəyan edən proseslər, digərləri ilə yanaşı, Ukrayna hadisələri də ABŞ və Aİ-ni Rusiyaya qarşı daha sərt sanksiyalar paketi tətbiq etməyə vadar etdi. Və bu sanksiyaların bəndlərindən biri də ABŞ-ın Rusiya neftinin alınmasına qadağa qoyması idi ki, bu da Rusiyanın enerji təchizatından ciddi asılılığına görə Avropanın vəziyyətini xeyli ağırlaşdırdı. İndi ABŞ Rusiya neft və qazının istifadəsindən tədricən çıxmaq planı hazırlayır və bu, İran neftinin Avropaya tədarük imkanlarını aktuallaşdırıb.

Gördüyünüz kimi, bu cür uyğunlaşma İranın maraqlarına uyğundur, çünki o, böyük həcmdə neft ixrac etmək imkanına malikdir. Xatırladım ki, vaxtilə İran gündə təxminən 2,5 milyon barel neft ixrac edirdi, amma sanksiyaların ən ağır dövrlərində bu rəqəm 400-500 min barel civarında idi. İndi çinlilərin neft alması hesabına İran neftinin ixracı bir qədər artıb- sutkada 1 milyon barrelə qədər. Bu, Tehran üçün o qədər də sərfəli deyil, çünki neft dünya qiymətlərindən xeyli aşağı qiymətlərlə verilir. Lakin son vaxtlar İran ABŞ-ın sanksiyalarına görə dünyada az neft sata bilməsi səbəbindən xeyli miqdarda neft toplayıb. Hazırda İranın neft anbarları neftlə tıxanıb. Təkcə neft anbarları kimi istifadə edilən tankerlər hazırda təxminən 85 milyon barel neft daşıyır. Düşünürəm ki, sanksiyaların ləğvindən dərhal sonra İran beynəlxalq neft bazarına əhəmiyyətli miqdarda neft çıxara və bir neçə ay ərzində enerji resurslarının ixracının ən yaxşı dövrlərinə qayıda bilər.

Bu vəziyyət Rusiyaya sərf etmir və bu başa düşüləndir- İran nefti Rusiyanı neftni kompensasiya edə bilərsə, Avropa böyük miqdarda İran neftini mənimsəməkdən məmnun olacaq. Bundan narahat olan Moskva Vyanada keçirilən danışıqlarda yekun sənədə amerikalıların Rusiya ilə İran arasında ticari-iqtisadi əlaqələrin, o cümlədən hərbi-texniki əməkdaşlığın inkişafına mane olmamasını nəzərdə tutan bəndin daxil edilməsini təklif edib. Moskva ABŞ-dan yazılı təminat tələb edib və artıq bu məsələdə ABŞ-ın razılığını alıb. Bu fakt həm də ABŞ-ın İranı nüvə sazişinə qaytarmaqda ciddi maraqlı olduğunu təsdiqləyir və hesab edirəm ki, bu məqam artıq yaxındır", - Vladimir Sajin bildirib.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

# Məqamdır, erməni hiyləsi işə salınmalıdır...

...Məncə, Moskva ilə Bakının dialoqu çərçivəsində vəziyyətin həllini gözləmək sadəlövhlükdür. Ona görə də, "yaranmış problemi" özümüz həll etməliyik. Amma necə və nəynən?

Məsələ bundadır ki, o gün bizim o "əyalət naziri"miz Artak Beqlaryan Azərbaycan Ordusu barədə elə şeylər danışdı ki, inanın, mən hələ də özümdə deyiləm.

Təbii ki, bu gün Rusiyanın səyləri nəticəsində ayaqda durmağımız bütün ermənilər kimi, mənə də bəllidir. Reallığı etiraf etmək lazımdır. Yəni demək istəyirəm ki, Rusiya olmasa, biz də olmarıq. Deyim ki, Beqlaryanın etirafı olmasaydı da, biz ermənilər Azərbaycan Ordusunun çox güclü olduğunu artıq qanmağa başlamışıq.

Belə görünür ki, son günlər bizi qorumaq üçün "artsax" a gələn ruslar daha bizi qorumaq istəmirlər? Bu gün bizim bunu deməyə "tutarlı əsasımız" var. Çünki biz bu gün rus sülhməramlılarından əvvəlki "nəvazişi" daha görmürük. Baxmayaraq ki, bizim "sayseçmə erməni igidlərimiz" burada bizi qoruyan ruslara "əvəz vermək üçün" Ukraynada "döyüşməyə" getsələr də, bu da hələ ki, elə bir effekt verməyib.

...Odur, o gün bizim o "erməni şərəflilər"ndən olan Hayk Mamicanyan" yaman gileylənirdi. İndi onun dediklərindən belə başa düşmək olur ki, bu gün Azərbaycan Silahlı Qüvvələrinə operativ nəzarətin daha böyük faizi Türkiyəyə keçib deyə, ona görə də "artsax"dakı vəziyyətin Rusiya və Azərbaycan tərəfləri arasında dialoq əsasında həll olunacağına inanmaq sadəlövhlükdür. Onun dediklərindən belə başa düşülür ki, "...real cavablar Moskva ilə Ankara arasında çox da uzaq olmayan danışıqlar nəticəsində ortaya çıxa bilər".

...Nə gizlədək, bu gün Rusiyanın gözümüzün qabağında zəiflədiyini etiraf etməliyik. Hətta bizdə bəzi şübhələr də baş qaldırmaqdadır. Uzağa getməyək, iki gün əvvəl Azərbaycan Ordusunun "qədim erməni yaşayış yeri" olan Fərruxda "biz ermənilərə yaşatdıqlarına" diqqət yetirmək kifayətdir(?).

Bizə elə gəlir ki, bütün bu "tamaşanın rejissoru" təkcə Azərbaycan deyil, həm də Rusiyanın özüdür. Çünki, yenə də bizə elə gəlir ki, Moskva, biz ermənilərə görə, nə Ankara, nə də Bakı ilə münasibətlərini korlamaq istəmir.

Bəs, belə olan halda biz bir erməni kimi nə etməliyik? Təbii ki, yeni, özü də bizim "haqq işimizi müdafiə edən" sülhməramlı axtarışına çıxmalıyıq. Bizə görə, belə sülhməramlılar ancaq fransız və amerikalılar ola bilərlər. Çünki hər iki dövlət ATƏT-in Minsk qrupunun üzvləridir. Bundan əvvəl də onlar həmişə bizim qeydimizə qalıb, bizə qahmar çıxıblar. Ona görə də, Xarici İşlər Nazirliyimiz və hökumətimiz onları dərhal "münaqişə zonasına" dəvət etməlidir. Əminəm ki, onlar öz müqavilələrini, ruslardan fərqli olaraq, daha məsuliyyətlə yerinə yetirəcəklər.

Doğrudur, Azərbaycan tərəfi bununla razılaşmaya da bilər. Amma Fransa, lap elə ABŞ da bizə görə israr edər. Azərbaycanı sanksiyalarla hədələyər və Azərbaycan da məcbur olub razılaşar.

...Bəs, biz bu qərarımızı ruslara necə izah edə bilərik, hıy? Amma necə olursa, olsa da gərək ki izahımız rusları qəzəbləndirməməlidir, hətta bu qərarın rusların xeyrinə olduğunu da onlara "başa salmalıyıq". Amma necə? Hə, bəs erməni hiyləsi nə gündə lazımdır, hıy? Deməli işə salmaq lazımdır.

***Ağasəf Babayev***

# Messi və Neymar

## DÇ-2022-nin rəmzi komandasında



DÇ-2022-nin Cənubi Amerika zonası üzrə seçmə mərhələsinin simvolik komandası açıqlanıb. Heyətdə aşağıdakı futbolçular yer alıb:

Qapıçı: Alisson Beker (Braziliya, "Liverpul")

Müdafiəçilər: Frenk Fabra (Kolumbiya, "Boka Xuniors"), Fabian Balbuena (Paraqvay, "Dinamo", Moskva), Tiaqo Silva (Braziliya, "Çelsi"), Ronald Arauxo (Uruqvay, "Barselona");

Yarımmüdafiəçilər: Luis Dias (Kolumbiya, "Liverpul"), Federiko Valverde (Uruqvay, "Real"), Rodriqo de Paul (Argentina, "Atletiko"), Anxel di Maria (Argentina, PSJ)

Hücumçular: Neymar (Braziliya, PSJ), Lionel Messi (Argentina, PSJ).

# Dünyanın

## ən böyük almazı Dubayda sərgilənəcək

**228,31 karatlıq dünyanın ən böyük ağ almazı ilk dəfə Dubayda nümayiş etdiriləcək. SİA xarici mətbuata istinadən xəbər verir ki, almaz mayın 11-də Cenevrədəki "Kristie's" hərrac evi tərəfindən hərraca çıxarılacaq. O vaxta qədər isə Tayvan və ABŞ-da sərgilənəcək. "Qaya" almazı 20 il əvvəl Cənubi Afrikada hasil edilib. Onun ən azı 30 milyon dollara satılacağı gözlənilir.**



"Kristie's" hərrac evi 2017-ci ildə keçirilən hərracda 163,41 karatlıq almazın rekord qiymətə 33,7 milyon dollara satıldığı barədə məlumat paylaşıb.

***Abutel İlhamqızı***

# Obsessiv pozğunluq nədir?

"Obsessiya - eyni düşüncələrin insan beynini məşğul etməsidir. İnsan beynində bir fikir dəfələrlə təkrarlanır". Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Leyla Fətəli bildirib. Psixoloq bildirib ki, Obsessiv pozuntular bir çox şəkildə özünü büruzə verir və bu pozuntunun bir sıra növləri vardır: "Dini, təmizlik, şübhə, simmetriya kimi növləri mövcuddur.

Dini - Allahı, peyğəmbəri və dini şəxsləri düşünərkən ağla gələn pis ifadələri beyindən qova bilmirlər. Çalışırlar ki, bu fikirləri beyinlərindən qovsunlar amma bunu edə bilmirlər. Namazı düzgün qıldıqlarına əmin ola bilmirlər.

Təmizlik - Əllərini nə qədər yusalar belə yenə də çirkli, mikroblu olduğunu düşünürlər.

Şübhə - Hər şeyə şübhə duyurlar. "Görəsən, işığı söndürdüm?, Qazı bağladım?" kimi fikirləri düşünmədən edə bilmirlər.

Simmetriya - Çalışırlar ki, hər şey eyni bərabərlikdə olsun. Masanın üzərindəki əşyalar, paltarlar hamısı sıralı şəkildə olsun.

Bunlardan ən çox yayılmışı təmizlik obsessiyasıdır. Əsasən 12-13 yaşlarında, yeniyetmə dövründə yaranır. Yeniyetməlik boyunca bu xəstəlik davam edir. Bu dövrlərdə çox vaxt yüngül şəkildə keçir. Lakin yaş artdıqca, məsələn 25-30 yaş-



larında bu ciddi xəstəliyə çevrilə bilir.

Təbii ki, psixoloji yardım alaraq bu xəstəlikdən qurtulmaq olur. Əgər bu xəstəlik çox ağır formada yaşanırsa dərmanla da müalicə olunur. Psixoloq xəstəyə "Mən edirəmsə düzdür" deməyi öyrətməlidir. Bəlkələri xəstənin həyatından uzaq tutmalıdır. "Bəlkə düz eləmədim?, Bəlkə az yudum?" kimi ifadələrin onların həyatında ciddi ziyan vurduğunu bildirmək lazımdır".

***Abutel İlhamqızı***

# Ramazan ayı: bunlara diqqət edin



"Bildiyimiz kimi, qarşıdan müqəddəs Ramazan ayı gəlir. Ramazan ayının daxil olması isə müəyyən bir formada təyin olunur". Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev bildirib. Onun sözlərinə görə, Ramazan hilalının görünməsi, yəni təzə ayın əlamətləri dəqiqləşdirilirsə, bu zaman sabah Ramazan ayının 1-i kimi qəbul olunur: "Qafqaz müsəlmanları idarəsinin, akademiyanın Pirqulu rəsədxanasına göndərdiyi sorğuya əsasən, alimlərimizin bizə verdiyi hesabat əsasında biz gözləyirik ki, aprel ayının 2-si Ramazan ayının 1-i daxil olacaq. Ümidvarıq ki, bu il Ramazan ayını pandemiya şəraitində keçirmirik, artıq ibadətlərə, mərasimlərə tam icazə var. Məscidlərdə məhdudiyyət yoxdur. İnsanlar artıq ibadətlərini rahat edə biləcəklər. Ramazan ayı daxil olacağı ərəfədə insanlar niyyət edirlər və bir ay müddətinə Ramazan ayı başlayır.

Oruc tutmaq sağlam insanlara aiddir. Mədə xəstələri, güclü şəkər xəstələri, yaşlı insanlar hansı ki, onlar qidalanmasa taqətdən düşər, halları pisləşər, eyni zamanda hamilə qadınlar, süd verən analar və əlavə olaraq ciddi xəstəlikləri olan insanlar da güzəştlidirlər. Eyni zamanda, Ramazan ayında bacardığı qədər səfərə çıxmamalıdır. Lakin elə adam var ki, onların həyat tərzi sırf səfərlə əlaqədardır. Məsələn, sürücü işləyir, daimi olaraq rayonlara gedib-gəlir. Bu insanlar sağlamdırlarsa, oruc tuta bilərlər. Lakin istisna səfəri olan adam başqa bir zamana təxirə salsa, çox gözəl olar. Ramazan özü bir aydan ibarətdir. Gün açılandan hava qaralana qədər insan yemək və içməkdən, eyni zamanda bəzi orucun tələblərindən özünü qorumalıdır.

Ramazan ayında ən böyük dəyər mənəviyyatın, əxlaqın formalaşmasıdır. İnsan duaları çox edib, ibadətləri icra etməlidir. O, özünün səhvləri, günahlarını yadına salır.

Ramazan ayının gözəlliklərindən biri də odur ki, bu ay paylaşma ayıdır. Kimin imkanı varsa, öz maddi imkanları hesabına imkansızlara kömək etməlidir. Öz iftarı üçün əldə etdiyini möhtac olan qocalar və imkansızlarla paylaşmalıdır. Bundan əlavə imkanı olanlar iftar süfrələri açmalıdır. Müəyyən insanlara gücü çatan qədər yardımlar edilməlidir. Xüsusilə də, Ramazan bayramına çatdıqda insanlara kömək etmək xüsusilə vacibdir. Bu zaman bayram axşamı hər bir ailə başçısı ailə üzvlərinin sayı qədər fitrə sədəqəsi çıxarır. Bu, çox vacib bir amildir. Buna elmi dildə fitrə zəkatı deyirlər. Hər bir insan bunu mütləq yerinə yetirməlidir. İmkanı olan insanlar hər bir ailədə olan adamın sayına uyğun olaraq 3 kq ərzaq və yaxud onun maddi qarşılığını verməlidir. İlk öncə öz yaxınlarından başlamalı, yəni yaxınlarındakı yoxsul ailələrə kömək etməlidir. Bayram günü səhər bunlar verilməlidir. Qonşularında, yaxınlarında olan tanıdığı bir yoxsul ailə varsa onları da unutmamalıdır. Bütün bunları bayram namazına qədər etmək daha məqsədəuyğundur. Allah tutduğumuz orucların, etdiyimiz ibadətlərin hamısını, oruc namazlarımızı qəbul etsin. Allah Vətənimizi, dövlətimizi daha da güclü etsin".

***Səbinə Hüseynli***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**